# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Mart 2026 (63)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.

**Texniki redaktor:** Tuncay Şəhrili.

**Məsul katib:** Araz Şəhrili.

**Rəssam:** Səlim Abbaszadə (Norveç)

**Beynəlxalq əlaqələr üzrə menecer:** Cahangir NAMAZOV

**Yaradıcılıq məsələləri üzrə menecer:** Şəlalə CAMAL

**Ədəbi tənqid məsələləri üzrə menecer:** Günnur AĞAYEVA

**İctimaiyyətlə əlaqələr üzrə menecer:** Nəzakət EMİNQIZI

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Mehman Həsənli, Təranə Məmməd, Aydın Xan Əbilov, Kamal Camalov, Günnur Ağayeva, Rizvan Fikrətoğlu, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Sevindik Nəsiboğlu, Taleh Xəlilov, Südabə Məmmədova, Leyla Yaşar, Murad Məmmədov, İlqar İsmayılzadə, Aytac İbrahim, Mövlud Ağamməd, Məmməd Gürşadoğlu, Aysu Türkel, Rafiq Hümmət (Gürcüstan), Faruk Habiboğlu (Türkiyə), Cihangir Nomozov (Özbəkistan), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç), Caroline Laurent Turunc (Fransa).

# BU SAYIMIZDA

Könüllülük haqqında ........................................................ 3
Baş redaktordan ........................................................ 4
Yazarlar jurnalı ........................................................ 5
Yunus Oğuz. Silsilə yazı........................................................ 6
Sədulla Şirinovun kitabları ........................................................ 13
Kamal Camalov. Məqalə. ........................................................ 14
Zaur Ustac. Məqalə. ........................................................ 29
Hacıxanım Aida. Məqalə. ........................................................ 37
Xəlil Mirzə. Hekayə. ........................................................ 43
Yusuf Demirağ. Şeirlər. ........................................................ 57
Günay Əliyeva. Hekayə. ........................................................ 60
Xəzər bəy Hikmətoğlu. Şeirlər. ........................................................ 68
Gülnarə İstafil. Şeirlər. ........................................................ 73
Turan Novruzlu. Şeirlər. ........................................................ 84
Zaur Ustac. Esse. ........................................................ 103
Təqdimat və təbriklər. ........................................................ 106

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan “Yazarlar”ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***“Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək”*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan “Yazarlar” kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **“YAZARLAR”** **dan sifariş yolu ilə əldə edə bilərsiniz. Mobil telefonla əlaqə:** (+994) 70-390-39-93

“YAZARLAR, ANCAQ YAZARLAR…” © YAZARLAR



*“İndi müstəqillik tariximizin inkişaf dövrünün qürurverici yeni mərhələsindəyik. İşğaldan azad edilmiş ərazilərimizdə ən qısa zamanda həyatın əvvəlki ahənginə qaytarılması üçün genişmiqyaslı işlər aparılır. İnanıram ki, Ulu Öndərin tövsiyələrini özünüzə şüar seçən siz könüllülər Vətənə və dövlətə bundan sonra da dərin bağlılıq nümayiş etdirəcək, yüksək fəallıq göstərərək Böyük Qayıdışa töhfələr verəcəksiniz.”*

**İlham Əliyev**

***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

***İlkin mənbə:* *President.az***



Zaur USTAC

## BAŞ REDAKTORDAN

***Salam olsun, dəyərli oxucular!***
***Jurnalımızın 63-cü sayı ilə görüşünüzə gəlmişik.***

.

*Bu sayımızda dəyərli tarixçi-yazarımız* ***Yunus Oğuz****un “Olaylar” qəzeti başda olmaqla müxtəlif mətbu orqanlarda yayımlanan* **“TÜRK” etnonimi və törələri** *adlı silsilə yazısının* ***on ikinci hissəsi****lə tanış olacaqsınız. Mövzunun əhəmiyyətini nəzərə alaraq silsilə yazını növbəti saylarımızda da dərc etməyə davam edəcəyik. Nəzərinizə çatdırmaq istəyirəm ki, əsər artıq* ***“Yazarlar” jurnal****ının xüsusi buraxılışı formasında, ayrıca kitab şəklində çap olunaraq oxuculara təqdim olunub (dekabr 2025 – Bakı). Jurnalımızın* ***Mart - 2026 № 03 (63)****-cü sayında ənənəvi müəllif yazıları, təqdimat, təbrik və məlumat xarakterli digər yazılar yer alıb.*

*Dəyərli oxucular, plana uyğun olaraq əvvəllər də olduğu kimi jurnalımızı elektron varintda və ənnənəvi formatda əldə edib, oxuya biləcəksiniz.*

*Sizə bütün həyat və fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq! Uğurlarınız bol olsun!*

**Hörmətlə: Zaur USTAC,**
***“Yazarlar” jurnalının baş redaktoru.***

“YAZARLAR” JURNALI

## “Yazarlar” jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən müstəqil yazarlar “Müstəqil Yazarlar Konfederasıyası” adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar “Yazarlar dərnəyi” adlı ikinci alt qurumun vasitəsilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir, “Yazarlar Akademiyası”nda mütəmadi olaraq yenilənən konkret üsul və proqramlarla gənc yazarların püxtələşməsinə köməklik edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət “Yaradıcılıq Komissiyası” adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur. Təqdimatlar, müzakirələr, məsləhətləşmələr və digər müxtəlif tədbirlər “Yazarlar klubu”nda təşkil olunur.
- “Yazarlar” jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri könüllülük qaydasında ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.

**Xüsusi qeyd:**

***Biz heç bir yazıya müdaxilə etmirik. Odur ki, xahiş edirik materialları göndərməzdən əvvəl bir daha yoxlayın, tam hazır, səliqəli şəkildə dərc olunmaq üçün son variantları göndərin.***



## “Türk” etnonimi və törələri

*(On ikinci yazı)*

**Əvvəli burada: “Türk” etnonimi və törələri – YUNUS OĞUZ yazır**

Yuxarıda qeyd etdiyimiz kimi türk cəmiyyətinin nüvəsi ailə idi və bu alənin əsasını ata-ana-usaq təşkil edirdi. Ata-ananın üç əsas vəzifəsi vardı:

**1. Övladı halal qazancla yedizdirmək, ləyaqətlə yetişdirmək, böyütmək, cəmiyyətin bir hissəsi etmək;**
**2. Övladı cəmiyyətin bir hissəsi etmək üçün dövrün tələbinə uyğun olaraq tərbiyə etmək, törələri mənimsətdirmək, qorxmaz döyüşçü kimi böyütmək;**
**3. Övladı evləndirmək, yaxud ərə vermək.**

Ata-ananın yazılmamış bu vəzifələri min illərdir nəsildən-nəsilə keçir, zamana uyğun olaraq dəyişikliklər olsa da, mahiyyəti dəyişmirdi. Elə indinin özündə də dünyanın qloballaşmasına baxmayaraq, türk dünyasında ata-ananın bu fundamental vəzifəsi dəyişməmişdir.

İslamaqədərki dövrdə türk qadınları üzlərini, (elə islamın ilk çağlarında da) gizlətmirdirlər. Törəyə uyğun olaraq qızın razılığı olmadan xaqan da olsa ona ərə getməzdi.

Oymaqda, obada "bayramlar, yarışlar və digər mərasimlər zamanı "qız", yaxud "oğlan" bəyənmək prosesi gedirdi. Ola bilərdi ki, qız və oğlan uşaqlıqdan bir yerdə böyüsünlər, sonradan bir-birlərinə könül versinlər.

İslam dövründə isə bu qaydalar qismən dəyişikliyə məruz qaldı. Belə ki, şəhərdə oturub yaşamaq istəyən türkləri öz soydaşları "duraq" adlandırırdı. Bu, o anlama gəlirdi ki, şəhərdə yaşamaq istəyən türklər, axınçılığı dayandırır, daha yürüşlərdə iştirak etmirdilər, yəni dayandı, durdu.

İslam dövründə şəhərdə yaşayan türklərin qız bəyənmək prosesi islam dövründə başqalaşdı.

Yuxarıda qeyd etdiyimiz kimi türk ailəsində, nəslin davam etdirilməsində əsas məsələ sağlamlıq hesab edilirdi. Buna görə də islamiyyət dövründə "qız bəyənmək" prosesi hamamdan başlayırdı. Qızın bədən düzlüyünü, əyriliyini, yarasını, xorasını, təmizliyini hamamda yuyunmaq prosesi daha tez üzə çıxarırdı. Adətən, "araçı" vasitəsilə bəyin anası gələcək gəlininə göz yetirir, vücudunun sağlamlığına, dilinin şirinliyinə, acılığına, oturuşuna, duruşuna diqqət yetirirdi.

Bir-birini sevən gənclərin evlənməsinə (təbiidir ki, ata və anaların razılığından sonra) “qovuşmaq” deyilir. Qızın bakirəliyi bu evlənmədə xüsusi əhəmiyyət kəsb edir və qədim türklərdə bu “qapaq” adlanırdı.

“Araçı” vasitəsilə oğlan evindən ana qız evinə təşrif aparırdı. Buna “ağız aramaq” deyirdilər. “Ağız aramaq” bir neçə gündən, bir neçə aya qədər çəkə bilərdi.

Bundan sonra “araçı” ilə oğlan evinə xəbər göndərilirdi ki, gərək qızın da ağzını arayaq, atası ilə məsləhətləşək. Hər iki tərəf razılığa gəldikdən sonra, oğlan evi elin ağsaqqalı, ağbirçəyi başda olmaqla qız evinə yollanırdılar. Bəzən qız evi naz edir, oğlan evini əliboş geri qaytarır, deyilirdi ki, bir fikirləşək. Amma yenə də razılıq olurdusa, oğlan evi bilirdi ki, bu dəfə qızı verəcəklər. “Araçı” bu aralarda çox fəal olurdu. O zaman oğlan evi erkək heyvana qırmızı lent bağlayıb qız evinə yollanırdı.

Razılıq zamanı qız atası “verdim”, oğlan evi isə “aldım” deyər, bununla da vədə sadiq qaldıqlarını bildirərdilər. Bundan sonra evlilik və toy müzakirəsinə başlayırdılar. Oğlan evi sosial vəziyyətinə görə qız evinə başlıq verirdi. Bundan əlavə “südlük”, “qan bahası” deyilən ödəmələr, yaxud hədiyyələr olurdu. Gəlinin ata-anasına, qardaş və bacılarına da hədiyyələr verilirdi, buna “ağırlıq” deyilirdi.

Bütün bunlara “kalın” deyilirdi. Sonralar bu sözü “kalım” kimi işlətdilər və indi də işlək sözdür. Yenə sosial vəziyyətdən asılı olaraq “dünir”lər (qudalar) qız toyunun xərcinin bir hissəsinin oğlan evi tərəfindən ödənilməsini müzakirə edirdilər.

Beləliklə, evlənmə bir necə mərhələdən keçir:

**1. Qızaxtarma (bəzən oğlan və qız bir-birlərini sevir, anaya bu barədə bildiriş verirlər.)**
**2. Qızbəyənmə (oğlan və qızın bir-birlərini bəyənməsi hələ heç nəyi həll etmirdi. Lazım idi ki, ata-ananın da razılığı olsun).**
**3. Elçilik.**
**4. Toy mərhələsi**

Toy mərhələsi iki yerə bölünürdü; qız toyu, oğlan toyu.

Qız toyundan sonra qız rəsmən gəlin sayılırdı. Əsasən qadınların iştirak etdiyi bu toyda gəlinə müxtəlif hədiyyələr verilirdi. Qırmızı gəlinlik paltarı geyinən qız, başına "didim" deyilən tac qoyurdu. Bəyin "sağdışı və soldışı" olduğu kimi, "qız toyu"nda da gəlinin "sağdışı", "soldışı" olurdu. Adətən sağdış evli, soldış isə subay olurdu. Gəlinin üzünü örtən duvağa isə "didək" deyilirdi.

Türklərdə "bəy və gəlin otağı" qabaqcadan hazırlanırdı. "Qız toyu"ndan sonra gəlinin ata-anası tərəfindən verilən cehiz "bəy və gəlin otağı"na daşınırdı. Gəlinin cehizi bəy evinə daşındıqdan sonra qadınlar gətirilən əşyaları bir-bir nümayiş edirdilər. Qadınlardan biri əşyanı qaldırıb "Bu onun filan əşyası" deyəndə yerdəkilər "Tanrı mutlu etsin", yaxud da "Allah mübarək eləsin" cavabını verərdilər. Gəlinin gətirdiyi cehiz onun öz malı hesab edilirdi. Gəlini bəy evinə at üstündə gətirərdilər. O atdan enərkən bəy tərəfindən verilən qulluqçunun çiyninə söykənirdi. İzdivac zamanı oğlan tərəfindən qızın bakirəliyini təsdiq etmək üçün "yengə" deyilən bir qadın təhkim olunurdu. Bundan sonra deyirdilər: "Qadın bəy sahibi oldu."

Qız toyundan bir neçə gün öncə "paltarbiçdi" deyilən mərasim keçirilirdi. Oğlan evinin adamları qız-gəlingilə gəlir, hazırladıqları geyimi, bəzək əşyalarını, şirniləri onlara təqdim edirdilər. Əgər bu gəliş bayram günlərinə düşürdüsə, o zaman əlavə olaraq qızıl

əşyalar və xınalı qoç gətirirdilər. Gətirilən əşyaları burada da mərasimə gələnlərə göstərirdilər.

Oğlan evində toya bir gün qalmış qız evində “xınayaxdı” mərasimi keçirilirdi. Bölgələrdən asılı olaraq bu mərasim müxtəlif cür keçirilirdi. Qızın əl-ayağına xına qoyulur, sonra isə gələnlər əllərinə xına yaxardılar. “Xınayaxdı” mərasimində müstəsna olaraq qız-gəlinlər, qadınlar iştirak edirdilər.

Gəlini bəy evinə aparmağa gələndə bəyin kiçik qardaşı onun belinə qırmızı lent bağlayırdı.

Qız həyətinə çalğıçı dəstəsi gəlir, bununla da bildirmək istəyirdilər ki, bu gəlin bəy evinə aparılacaq. Bəy gözə görünməz, gəlin arxasınca özü gəlməzdi.

Gəlini bəy evinə aparanda “qabaqkəsdi” adəti də vardı. İstənilən böyük-kiçik gəlinin qarşısını kəsib “nəmər”, “xələt” istəyirdi. Oğlan evinin çibindən, qurşağından nə çıxardısa onu verərdi. Gəlin həyətə daxil olanda onun başına şirni atırdılar ki, həyatı şirin olsun. Bəzi bölgələrdə isə meyvə qurusu da səpirdilər.

Toy günü bəy sağdış, soldışla “bəy hamamı”na gedərdi. Hamamda saclarına, saqqalarına düzən verər, təzə paltarlar geyinərdilər. Daha sonra bəyi toy mağarına aparardılar, yaxud bir otaqda gözlətdirərdilər. Bu zaman sağdış və soldış onun ayrılmaz hissəsi olurdu.

Bəyin soldışı evli, sağdışı isə subay olmalı idi. Bu, o anlama gəlirdi ki, bəy subay həyatından evliliyə qədəm qoyurdu. “Bəy toyu” üç gün, üç gecə keçirilərdi. Hətta daha imkanlılar “Dədə Qorqud”

dastanında deyildiyi kimi “qırx gün, qırx gecə toy-düyün eylədilər”.

Toyda ozanlar (aşıqlar) söz sözləyər, söyləmələrinə (şeirlərinə) möhür vurar, qıfılbənd deyər, bir-birlərini bağlamağa çalışardılar. Kim məğlub olurdusa, qopuzu (sazı) əlindən alınar, bir daha qalibin yanında söz söyləməzdi. Aşıqlar dastan söyləyər, uzun toy gecəsində iştirak edənlər intizarla gözləyərdilər ki, hadisələrin sonu nə ilə nəticələnəcək. Bundan əlavə toyda zurna-balaban və nağara dəstəsi də iştirak edərdi. Əsasən gənclər halay tutar, toy mağarına xüsusi bir şirinlik və şənlik gətirərdilər. Toyda gənclər əsasən qımız və şərab içər, xoşagəlməz hərəkətlərə yol verməzdilər.

Mağarda toyu idarə edən hörmətli adama “toybaşı”, yaxud “sərpayı” deyirdilər. O adətən toyun düzənini qorumağa çalışar, oynayıb yorulanları başqaları ilə əvəz edərdi. Mağarda heç kim onun sözündən, əmrindən çıxa bilməzdi.

Gündüzlər toyda at, ox, güləş (qurşaqtutdu) yarışları keçirilərdi. Qaliblərə ya bəy, ya da atası tərəfindən mükafatlar verilərdi.

Toy mərasimində heç bir dini mövzu haqqında danışılmaz, dini söhbətlərə icazə verilməzdi. Bu da onu göstərirdi ki, dinin törələrə təsir gücü yox dərəcəsində idi.

Mərasimin sonuncu günü “bəy tərifi” başlayardı. Bəyi sağdış və soldışla birgə otuzdurar və bəy tərifi başlanardı. Toybaşı növbə ilə adları çəkər, aşıq da “Gəlsin xələt versin bəyin filankəsi” deyərdi. Bu gələnəklər günümüzə qədər gəlib çıxmış və təəssüflər olsun ki, artıq unudulmaqdadır.

Yadımdadır, məsələn bəy tərifi deyən aşıq söylərdi:

**Bakıdan yol gedir Duvannı, Ələt**
**Gəlsin xələt versin bu təklə Bələd.**
Adları çəkilənlər də imkanları daxilində xələt verər, bəyin evliliyinə dəstək verərdilər. Daha əvvəllər isə tərəkəmə həyatı yaşayan bəy və gəlinə yeni çadır qurular, oturaq türklər üçün isə, əgər evin böyük oğludursa ev tikilər, həm də evin qurulmasına elliliklə kömək edərdilər.

Toydan üç gün sonra bəy və gəlin gərdəkdən çıxıb evdəkilərin üzlərinə görünürdü. Buna "üzə çıxdı" deyirdilər. Bu zaman oğlan evi gəlinə qiymətli hədiyyələr verərdi. Gəlinin ata-ana evinə ilk gedişinə "ayaqaçdı" deyirdilər. Bu dəfə isə bəyə hədiyyələr təqdim olunurdu. Beləliklə, evlilik və möhkəm qurulmuş ailə həyatı başlayırdı.

Toy mərasiminə yekun vuraraq elə bölümü F.Ağasıoğlunun sözlərilə tamamlamaq istəyirik: "Göründüyü kimi, evlənmə, toy gələnəyilə bağlı "bəy, gəlin, söz alma, elçi, elçi daşı, başlıq, cehiz, duvaq, yançı, yengə, qayın, qaynata/qaynana, baldız, günü, kürəkən, damad, yeznə, sağdış, soldış, quda, toy gecəsi, toy xınası, xınayaxdı, paltar biçdi/kəsdi, ayaqacdı, bəy hamamı, bəy tərifi, bəy toğlusu, toybaşı" və sair bu kimi onlarla söz vardır. Bu terminlərin əvvəlki leksik anlamının öyrənilməsi çox önəmlidir, çünki belə etnoqrafik sözlər bizi xalqımızın qədim gələnəklərinə aparıb çıxarır..."

**Ardı burada: "Türk" etnonimi və törələri**

**MÜƏLLİF: YUNUS OĞUZ**

**Yunus Oğuzun bloqu**



## SƏDULLA ŞİRİNOVUN KİTABLARI:

1. *Sədulla Şirinov "Sönməyən qisas" pdf*
2. *Sədulla Şirinov "Gecikmiş etiraf" pdf*
3. *Sədulla Şirinov "Zamanın pəncərəsindən baxanda" pdf*
4. *Sədulla Şirinov "Heç nə olmazdan çox şey olurmuş" pdf*
5. *Sədulla Şirinov "Qudalar" pdf*
6. *Sədulla Şirinov – "Kimdir xoşbəxt?" pdf*

KİTABEVİM.AZ
kitab marketi
www.KİTABEVİM.AZ




**TƏBİƏTİN VƏ RUHLARIN PIÇILTISINI DUYAN ZAUR USTAC**

Sevgi, məhəbbət başər mədəniyyətinin ən qədim və ən universal mənəvi kateqoriyalarından biridir. O, insanın daxili aləmini formalaşdıran, estetik düşüncəsini cilalayan və mənəvi kamilliyə aparan əsas psixoloji-emosional amillər sırasında xüsusi yer tutur. Poeziya isə bu ali duyğunun dilə gəlmiş, sözlə bədii-estetik forma qazanmış ən təsirli ifadə vasitəsidir.

Hər zaman milli-mənəvi dəyərlərin keşiyində duran şair Zaur Ustacın “Sevgi dolu şeirlər” kitabı məhz bu baxımdan insan qəlbinin incə tellərinə toxunan, sevginin çoxqatlı semantik məkanını bədii

düşüncə müstəvisində təqdim edən poetik nümunələri bir araya gətirir. Kitabdakı şeirlərdə məhəbbət təkcə romantik hiss kimi deyil, həm də mənəvi saflığın, daxili harmoniya və insani dəyərlərin daşıyıcısı kimi təqdim olunur. Burada sevgi bəzən ümid, bəzən həsrət, bəzən də sədaqət və fədakarlıq kontekstində elmi-estetik baxımdan müşahidə oluna bilən bir fenomen kimi təcəssüm edir.

Kitabda yer alan poetik mətnlər emosional dərinliklə yanaşı, obrazlı təfəkkür, metaforik zənginlik və semantik bütövlük baxımından da diqqəti cəlb edir. İctimai-intellektual fikir şairi Zaur Ustac sevgi ilə yanaşması subyektiv hisslərin sadə ifadəsi ilə məhdudlaşmır; əksinə, sevgi insan və cəmiyyət münasibətlərinin fəlsəfi-estetik interpretasiyası səviyyəsinə yüksəlir.

Beləliklə, “Sevgi dolu şeirlər” kitabı oxucuya təkcə poetik zövq deyil, eyni zamanda mənəvi düşüncə, emosional özünüdərk və estetik kamillik baxımından zəngin bir mütaliə təcrübəsi təqdim edir. Bu toplu məhəbbətin elmi-anlayış çərçivəsində izahı ilə bədii duyumun vəhdətini nümayiş etdirən dəyərli ədəbi nümunə kimi qiymətləndirilir: “Çiçəklər”, “Dağlar”, “Sevgi”, “Təbiət” və “Zəfər yolu”.

Müasir ədəbi tədqiqatlarda fəsil başlıqlarının yalnız strukturlaşdırıcı element deyil, həm də mətnin ideya-konseptual xəttini ifadə edən simvolik göstəricilər kimi qiymətləndirilməsi vacib hesab olunur və bu baxımdan elmi araşdırmaya uyğun kateqoriyalar təşkil edir.

“Çiçəklər” adlı fəsli şair estetik və mənəvi inkişaf konsepti kimi ifadə edir. “Çiçəklər” fəsli müəllifin estetik düşüncəsini və mənəvi kamilləşmə ideyasını simvolizə edir. Burada çiçək obrazı həm estetik dəyər, həm də fərdi inkişafın mərhələlərini əks etdirən konsept kimi çıxış edir. Rəngarənglik və müxtəlif çiçək növləri insan təcrübələrinin çoxşaxəliliyini, çiçək açılması isə mənəvi olqunlaşmanı ifadə edir. Bu fəsil, elmi baxımdan, insan daxili aləminin inkişaf mərhələlərini bədii simvolika vasitəsilə təqdim edən model kimi qiymətləndirilə bilər.

“Dağlar” fəsli iradə və mənəvi möhkəmlik modeli kimi təqdim edilir. “Dağlar” fəsli obrazın müqavimət və sabitlik anlayışlarını simvolizə edir. Dağ yüksəklikləri ali məqsədləri, çətin keçidlər isə şəxsi inkişafın maneələrini əks etdirir. Burada dağ metaforu insan xarakterinin prinsipiallıq və əzmkarlıq xüsusiyyətlərini strukturlaşdırmaq məqsədi daşıyır. Bu kontekstdə fəsil, psixoloji və sosial dayanıqlılığın simvolik modelini təqdim edir.

“Sevgi” fəsli şair tərəfindən humanist-pedaqoji konsept kimi təqdim edilir. “Sevgi” fəsli yalnız emosional kateqoriya kimi deyil, həm də sosial və mənəvi münasibətlərin formalaşmasında əsas mexanizm kimi təqdim olunur. Sevgi konsepti empatiya, bağlılıq və dəyər yönümlülük kimi elmi terminlərlə ifadə edilə bilər. Bu fəsil, humanist ideyanın mətndə konkret bədii struktura çevrildiyi nümunə kimi təhlil olunur.

"Təbiət" fəsli insan-təbiət münasibətlərinin fəlsəfi və ekoloji aspektini əks etdirir. Təbiət burada insanın daxili aləminin metaforik davamı və ekoloji şüurun simvolu kimi çıxış edir. Fəsildə harmoniya anlayışı tarazlıq prinsipi ilə, mühit isə şəxsiyyətin formalaşma faktorları ilə elmi terminologiya vasitəsilə ifadə olunur.

"Zəfər yolu" bölümündə isə şair tərəfindən məqsədyönlü inkişaf və sosial nailiyyət modeli kimi ifadə olunur. "Zəfər yolu" fəsildə fərdi və kollektiv inkişafın nəticə mərhələsini təqdim edir. Zəfər yalnız fiziki qələbə deyil, ideoloji və mənəvi üstünlük kimi təhlil olunur. Yol obrazı proses və inkişaf mərhələlərini, qələbə isə sosial-psixoloji yetkinliyi simvolizə edir. Bu fəsil, nəticəyə yönəlik fəaliyyət modelini və məqsədin mənəvi və sosial aspektlərini strukturlaşdıran konsept kimi qiymətləndirilir.

Beləliklə, fəsil başlıqları əsərdə yalnız strukturlaşdırıcı funksiyanı yerinə yetirmir, həm də müəllifin ideya sistemini simvolik və konseptual göstəricilər vasitəsilə təqdim edir. Hər bir fəsil, insanın mənəvi, estetik və sosial inkişafını, eləcə də ideya və dəyər sistemini elmi terminlərlə ifadə edən model kimi təhlil oluna bilər. Bu yanaşma, fəsil başlıqlarının elmi təhlilinə və bədii mətnin konseptual analizinə imkan yaradır. "Bənövşə" adlı şeirdə oxuyuruq:

Kimi öyər, bənövşəni,
Kimi qara, qara yaxar...
Bənövşənin od həsrəti,
Qarı da yandırıb, yaxar...

Bildiyimiz kimi bənövşə (incəlik, həssaslıq, gözəllik), qar (soyuqluq, maneə, əngəl), od həsrəti (iç alov, ehtiras). Burada ziddiyyətli bir duyğu dünyası yaradılır: bənövşənin incəliyi və od həsrəti qarı əridir, çətinliklərə rəğmən gözəllik və ehtiras qalib gəlir. Şair təbii elementlər vasitəsilə insan duyğularını simvolizə edir.

Bulaq başı buz, sırsıra,
Əlin düşə, köz ısıra,
Rəbbim yol verməz qüsura,
İçindən can qalxıb, baxar...

Burada şair təbiət və mənəviyyatı birləşdirir. Soyuq təbiət içərisində insanın daxili istiliyi (köz) çətinlikləri yüngülləşdirir. Allahın himayəsi və mənəvi qoruma vurğulanır. Obrazlı şəkildə, bu bənd insanın daxili gücü və mənəvi dəstəyi ilə çətinlikləri aşmasını göstərir.

Ustacam, xeyməm laməkan,
Rüsxət verə, qıla imkan,
Tər bənövşəm olar kankan,
Qar içindən çıxıb, qoxar.

Şair öz yaradıcı potensialını və təbiətə olan incə münasibətini ifadə edir. Bənövşə qar içindən çıxıb qoxması ilə gözəlliyin və incəliyin çətinliklərə rəğmən özünü göstərməsi metaforik olaraq təsvir olunur. Bu bənd həm də yaradıcılıq və həyat enerjisinin təbiətlə harmoniyasını göstərir.

Belə nəticəyə gələrək deyə bilərik ki, şeir ziddiyyət və harmoniya üzərində qurulub: gözəllik və incəlik (bənövşə) qarşısında sərtlik və çətinlik (qar, buz), daxili enerji və ehtiras (od, köz) ilə aşılır. Təbii elementlər – bənövşə, qar, buz, köz, bulaq – həm insan duyğularını, həm də mənəvi aspektləri simvolizə edir. Şair insan, təbiət və mənəviyyat arasındakı əlaqəni poetik və obrazlı dillə çatdırır.

Zaur Ustacın "Şehçiçəyim" adlı şeiri də sevgi və həsrət mövzusunu poetik şəkildə ifadə edən bir əsərdir. Şair burada "Şehçiçəyim" obrazı vasitəsilə dərin heyranlığını və ehtirasını vurğulayır.

Tacısan dünyamda tüm çiçəklərin,
Köksündən bal süzən, tər Şehçiçəyim...
Sehrinə düşmüşəm, nur ləçəklərin,
Əqli başdan alan, zər Şehçiçəyim...

Obraz, həm təbiətin zərifliyini əks etdirən çiçək metaforaları ilə, həm də qiymətli və nadir bir varlıq kimi təqdim olunur. Şeirdə çiçəklər, bal, nur ləçəklər və pərvanə kimi simvollar vasitəsilə sevgini həm vizual, həm də emosional olaraq təsvir etmək məqsədi güdülür.

Cəzbində qalmışam, tamam çar-naçar,
Sağımda, solumda çox çiçək açar,
Pərvanəyə dönüb, dövrəmdə uçar,
Sərrafam, seçmişəm, dürr Şehçiçəyim...

Şeir dili zəngin və obrazlıdır; misralardakı “zər”, “dürr”, “nur”, “sehr” kimi sözlər oxucuda həm vizual təsir, həm də emosional rezonans yaradır. Təkrar olunan “Şehçiçəyim” ifadəsi vurğunu gücləndirir və şeirin ritmini təmin edir. Struktur baxımından şeir dörd bənddən ibarətdir, hər bənd özündə bir fikir və hissi tamamlayır. Misraların axıcı ritmi, şairin heyranlıq və həsrət hisslərini daha canlı şəkildə çatdırır.

Bir kərə, bir anlıq olsa da, vüsal
Ruhuma rahatlıq verməyir xəyal,
Sonu ölümsə də, gəl qoynuna al,
Həsrətdə yaşamaq, zor Şehçiçəyim...

Nəticə etibarilə, “Şehçiçəyim” şeiri, sevgi və həsrətin incə poetik ifadəsi olaraq oxucuya emosional təsir göstərir və Azərbaycan poeziyasının obrazlı dil ənənələrini əks etdirir.

Azərbaycan şifahi və yazılı ədəbiyyatında “Dağlar” motivi yalnız coğrafi məkanın poetik təsviri ilə məhdudlaşmır; bu obraz əsrlər boyu mənəvi ucalıq, əxlaqi bütövlük, ilahi qüdrət, dözüm və müqavimət anlayışlarının simvolik ifadə vasitəsinə çevrilmişdir. Xüsusiylə aşıq poeziyasında dağlar obrazı insanın daxili aləmi ilə təbiət arasında qurulan poetik paralelliyin əsas dayaq nöqtələrindən biri kimi çıxış edir.

Bu baxımdan Zaur Ustacın şeir kitabında ayrıca bir fəsli “Dağlar” adı altında təqdim etməsi təsadüfi seçim deyil, poetik düşüncənin ənənə ilə dialoqa girməsi, klassik aşıq poeziyasının

semantik yükünün müasir poetik sistemdə yenidən aktuallaşdırılması cəhdi kimi dəyərləndirilməlidir. Fəsildə yer alan "Dağlar" şeirinin Aşıq Ələsgərə ithaf edilməsi isə bu dialoqun şüurlu və konseptual xarakter daşıdığını göstərir.

Məlumdur ki, Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasında "Dağlar" motivini ən geniş, çoxşaxəli və fəlsəfi səviyyədə işləyən sənətkarlardandır. Onun "Dağlar" rədifli və mövzuya bağlı şeirləri dağ obrazını bəzən müraciət ünvanı, bəzən sirdaş, bəzən isə hakim və şahid funksiyasında təqdim edir. Ələsgər poetikasında dağlar insan taleyinin sarsılmazlığı, haqq-ədalət meyarı və ilahi nizamın simvolu kimi çıxış edir. Bu poetik model zamanla aşıq poeziyasında kanonlaşmış və sonrakı nəsil şairlər üçün istinad nöqtəsinə çevrilmişdir.

Daxili harmoniyanın daşıyıcısı Zaur Ustacın "Dağlar" şeirini Aşıq Ələsgərə ithaf etməsi, hər şeydən əvvəl, ədəbi varislik prinsipinin bədii təsdiqi kimi çıxış edir. Burada ithaf formal xarakter daşımır; əksinə, poetik mətnin semantik qatlarında Ələsgər poeziyasına xas olan ritmik ahəng, müraciət forması, metaforik yük və intonasiya aydın şəkildə hiss olunur. Bu isə şairin klassik ənənəni mexaniki şəkildə təkrarlamadığını, onu yaradıcı şəkildə mənimsədiyini göstərir.

Elmi baxımdan qeyd etmək lazımdır ki, belə bir yanaşma intertekstuallıq və mədəni yaddaş anlayışları çərçivəsində təhlil oluna bilər. "Dağlar" fəsli həm fərdi poetik düşüncənin məhsulu, həm də

kollektiv estetik yaddaşın davamı kimi çıxış edir. Şair bu fəsildə dağ obrazını yalnız təbiət təsviri kimi deyil, tarixi, mənəvi və milli kimlik göstəricisi kimi təqdim edir ki, bu da Ələsgər poetikasının ideya-estetik xətti ilə səsləşir.

“Dağlar” adlı poetik fəsil və xüsusən Aşıq Ələsgərə ithaf olunmuş şeir, Azərbaycan poeziyasında ənənə və müasirlik münasibətlərinin uğurlu nümunələrindən biridir. Bu nümunə göstərir ki, klassik aşıq poeziyası müasir şair üçün yalnız keçmişin bədii irsi deyil, eyni zamanda yaradıcı ilham və estetik istiqamətverici mənbə funksiyasını yerinə yetirir. Beləliklə, dağlar obrazı əsrlərarası poetik körpü rolunu oynayaraq milli poeziyanın davamlılığını və ideya bütövlüyünü təmin edir.

Şeir memarı Zaur Ustacın “Ruhuna min rəhmət dədə Ələsgər” – deyərək “Dağlar” adı ilə Aşıq Ələsgərə ithaf edən şeirində oxuyuruq:

Nədəndi, ürəyim çırpınır  yenə,
Gördükcə hüsnündə məlalı, dağlar?!
Yağı cövlan edir, dağıdır yenə,
Qoynunda büsatı, cəlalı, dağlar!

Unutmaq olarmı, heç bu zilləti?
Mövcud hal-vəziyyət üzür milləti,
Onsuz da düşmənin puçdu niyyəti,
Ordumun beşiyi, vüsalı, dağlar!

Dünya belə qalmaz, dəyişər zaman,
Yenə dövran olar, həmənki dövran,
Bulaqlar başında məclislər quran,
Oğullar ərsəyə gələli, dağlar!

Ustac bulud kimi dolub, ağlamır,
Köksünün yarası qaysaq bağlamır,
Bir bilsən, ruhumu nələr çuğlamır,
Doğacaq nə zaman Hilalın, dağlar?!

Şeir vətənpərvərlik, milli yaddaş, tarixi travma və gələcəyə ümid ideyaları üzərində qurulmuşdur. Lirik "mən"in dağlara müraciəti vasitəsilə vətənin keçmiş iztirabları, hazırkı ictimai-siyasi vəziyyətin doğurduğu ağrı və gələcək qurtuluş arzusu poetik müstəvidə ifadə olunur. Dağ obrazı burada həm coğrafi məkan, həm də milli varlığın rəmzi kimi çıxış edir.

Şeirdə dominant olan üslubi vasitə apostrofadır (dağlara müraciət). Lirik subyekt dağları canlı varlıq kimi təqdim edir və onlarla dialoq qurur. Bu, şeirin emosional yükünü artırmaqla yanaşı, kollektiv şüurun (xalqın ağrısının) fərdi duyğu səviyyəsində ifadəsinə imkan yaradır.

İkinci bənddəki: "zillət", "mövcud hal-vəziyyət üzür milləti", "düşmənin puç niyyəti" kimi ifadələr şeirin konkret tarixi-ictimai reallıqla bağlı olduğunu göstərir. Burada düşmən anlayışı təkcə fiziki

işğalçı deyil, həm də milli ləyaqəti tapdalayan güc kimi ümumiləşdirilir. Ordunun “beşik” metaforası isə milli dirənişin və gələcək qələbənin mənbəyi ideyasını gücləndirir.

Üçüncü bənddə zaman anlayışı dairəvi-fəlsəfi müstəvidə təqdim olunur: “Dünya belə qalmaz”; “dəyişər zaman”; “yenə dövran olar”. Bu yanaşma klassik Şərq poeziyasında geniş yayılmış zamanın dəyişkənliyi və tarixi ədalətin gec-tez bərpa olunması ideyasına söykənir. Keçmişdə bulaq başında məclislər quran oğulların yenidən yetişəcəyinə inam milli optimizmin poetik ifadəsidir. Şeirdə əsas simvolik obrazlar bunlardır:

Dağlar – vətən, dözüm, yaddaş, müqavimət

Bulud – yığılmış kədər, ifadə olunmayan ağrı

Yara – tarixi travma, sağalmayan itki

Hilal – qurtuluş, milli-mənəvi dirçəliş, azadlıq

Xüsusilə Hilal obrazı dini-milli semantika daşımaqla yanaşı, ümid və dirçəlişin kulminativ nöqtəsi kimi çıxış edir. Şeirin dili: emosional-ekspressiv, publisistik çalarlarla zəngin, klassik poetik leksikaya söykənən xüsusiyyətlərə malikdir. “hüsn”, “cövlan”, “vüsal”, “cəlal” kimi sözlər yüksək üslub qatını təmin edir və şeirin ideya ağırlığına uyğun poetik ciddi ton yaradır.

Nəticə etibarilə, şeir vətənin taleyinə həsr olunmuş lirik-epik düşüncə nümunəsi kimi qiymətləndirilə bilər. Burada fərdi hisslər ictimai yaddaşla sintez olunur, ağrı və ümid qarşılaşdırılaraq milli dirəniş ruhu bədii şəkildə ifadə edilir. Şeir həm ideya-məzmun, həm

də obrazlar sistemi baxımından elmi-estetik təhlilə açıq, çoxqatlı poetik mətn təsiri bağışlayır.

Zaur Ustacın “Sevgi dolu şeirlər” adlı kitabında 2016-cı ildə qələmə aldığı ruh oxşayan, könül oxşayan şeirlərindən biri də xalq şairi Səməd Vurğuna həsr etdiyi “Vurğun və təndi adlı” şeiridir.

Ruhların pıçıltısını duyan Zaur Ustac bu şeirini də elmi-publisistik çalarlardan uzaq məntiqi bütövlük prinsipləri əsasında qurmuşdur. Şeir müasir Azərbaycan poeziyasında Vurğun fenomeninin ideya-estetik rekonstruksiyası kimi çıxış edir. Mətnin semantik əsasını Səməd Vurğunun şəxsiyyəti ilə “Vətən” anlayışının ontoloji eyniləşdirilməsi təşkil edir. İstedadlı şair Ustac Səməd Vurğunu yalnız tarixi-ədəbi şəxsiyyət kimi deyil, milli varlığın poetik simvolu, Vətənin mənəvi daşıyıcısı və ifadəçisi səviyyəsində təqdim edir. Bu yanaşma şeirdə fərdi vurğunluqdan milli şüura doğru yüksələn ideya xəttini formalaşdırır.

Vurğunam, Vurğunun vurğunluğuna,
Vətən varlığıydı, Vətən varıydı…
Vətəndə vətənsiz Vurğunluğuyla,
Vətənin varlığın vurğulayırdı…

Varam, Vurğunumun vurğunluğuna,
Varıynan varmışdı varılmayana,
Vətənin vəkili Vəkiloğluna,
Vətən vüqarıydı, Vətən varıydı…

Şeirin leksik-semantik sistemində “vurğunluq”, “varlıq”, “Vətən”, “var”, “vüqar” kimi anlayışlar əsas semantik dayaqları təşkil edir. Bu sözlər təkcə leksik vahid kimi deyil, mənəvi-fəlsəfi kateqoriyalar kimi işlədilir. Xüsusilə “vurğunluq” anlayışı adi emosional haldan çıxarılaraq milli bağlılıq, ideoloji sədaqət və mənəvi məsuliyyət məzmunu qazanır. Beləliklə, müəllif Vurğuna vurğunluğunu Vətənə sədaqət müstəvisinə keçirir.

Mətnin poetik strukturunda təkrir və alliterasiya mühüm üslubi funksiya daşıyır. “Vurğun”, “Vətən”, “var”, “vüqar” sözlərinin ardıcıl və məqsədli şəkildə təkrarlanması semantik intensivliyi artırmaqla yanaşı, ideya vahidliyini möhkəmləndirir. Bu təkrirlər şeirdə həm ritmik bütövlük yaradır, həm də Vurğun -Vətən münasibətlərinin ayrılmazlığını dil səviyyəsində təsdiqləyir.

Varam, Vurğunumun vurğunluğuna,
Varıynan varmışdı varılmayana,
Vətənin vəkili Vəkiloğluna,
Vətən vüqarıydı, Vətən varıydı…

Şeirdə diqqəti cəlb edən əsas ideya xətti “Vətəndə vətənsiz” anlayışının problematik təqdimatıdır. Müəllif bu ifadə vasitəsilə mənəvi boşluq, milli yaddaşdan uzaqlaşma və ideoloji laqeydlik hallarını tənqid edir. Bu kontekstdə Vurğun obrazı milli vicdanın təcəssümü kimi çıxış edir və vətənsizliyə qarşı poetik müqavimət forması alır.

Fikrimizi ümumiləşdirərək deyə bilərik şeir Səməd Vurğunun yaradıcılığına deyil, onun milli missiyasına poetik baxış kimi qiymətləndirilə bilər. Mətn Vurğun obrazını Vətən anlayışı ilə eyniləşdirərək onu milli kimliyin bədii modeli səviyyəsinə yüksəldir. Elmi baxımdan bu şeir milli poeziyada şəxsiyyət – Vətən sintezinin müasir poetik interpretasiyası kimi dəyərləndirilə bilər.

Söz incəliklərinin bilicisi Zaur Ustacın poetik dünyagörüşü milli düşüncə sisteminə, xalq yaddaşına və mənəvi-əxlaqi dəyərlərə söykənən bütöv bir estetik konsepsiya kimi səciyyələnir. Onun baxış və görüşlərinin mərkəzində insan amili, mənəvi kamillik və vətəndaşlıq mövqeyi dayanır. Şair təbiət obrazlarını yalnız təsvir vasitəsi kimi deyil, insan ruhunun daxili aləmini, cəmiyyətin mənəvi durumunu ifadə edən simvolik məna daşıyıcısı kimi təqdim edir. Poetika daxilində vətən anlayışı coğrafi məkan çərçivəsindən çıxaraq tarixi yaddaş, milli kimlik və mənəvi məsuliyyət məfhumları ilə vəhdətdə verilir.

Sevda şairi Zaur Ustacın yaradıcılığında söz estetikası ideya yükü ilə üzvi şəkildə əlaqələnir; bədii forma heç vaxt məzmundan ayrılmır, əksinə, onu tamamlayan funksional vasitəyə çevrilir. Didaktik çalarlar açıq nəsihət formasında deyil, obrazlılıq və emosional təsir yolu ilə təqdim olunur. Onun poetik baxışlarında insanın özünüdərk prosesi, zaman və tale qarşısında məsuliyyəti, cəmiyyət qarşısında vəzifəsi əsas problematik xətti təşkil edir. Beləliklə, şairin poetik görüşləri fərdi lirikanı ictimai düşüncə ilə

uzlaşdıran, estetik zövqü mənəvi tərbiyə ilə vəhdətdə təqdim edən kamil bir sənət mövqeyi kimi ümumiləşdirilə bilər.

Hisslərin tərcümanı Zaur Ustac yaradıcılığı bədii-estetik zənginliyi və ideya tutumu baxımından çoxşaxəli tədqiqata ehtiyac yaradır. Əziz və dəyərli şairimiz Zaur Ustac!

Ruhumuzu oxşayan, könlümüzün ən incə tellərinə toxunan bu dəyərli "Sevgi dolu şeirlər" kitabına görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sözünüzdəki səmimiyyət, misralarınızdakı mənəvi işıq oxucunu düşünməyə, duymağa və saflaşmağa çağırır. Bu kitab yalnız şeirlər toplusu deyil, həm də qəlbin, ruhun və milli-mənəvi dəyərlərin poetik salnaməsidir.

Siz sözə ruh, duyğuya dərinlik, fikrə ucalıq qazandıran şairlərdənsiniz. Hər misranızda insan qəlbinin səsi, zamanın nəfəsi, həyatın mənası duyulur. Oxucu bu şeirlərdə öz sevincini də tapır, ağrısını da, ümidini də. Poeziya aləminə belə saf, duyğulu və mənəvi zəngin bir əsər bəxş etdiyiniz üçün Sizə təşəkkür edirik. Qoy sözünüz daim yaşasın, qələm yolunuz işıqlı, yaradıcılıq nəfəsiniz tükənməz olsun.

Ulu Tanrı Sizi qorusun!

**Müəllif: KAMAL CAMALOV**
***Pedaqogika elmləri doktoru, professor***
***Azərbaycan Respublikasının Əməkdar müəllimi***

**Mustafa Müseyiboğlu adına kitabxana**



**“Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən…”**

(*Şahnaz Səxavətqızının eyni adlı kitabı haqqında)*

Salam olsun, çox dəyərli oxucum! Bu dəfə söhbətimizin mövzusu qadınlar haqqında yazan gənc xanım yazarımız Şahnaz Səxavətqızının “Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən…” kitabı haqqında olacaq. Onu qeyd edim ki, Şahnaz Səxavətqızı Beynəlxalq Karyera akademiyasının dəvəti ilə fəxri qonaq qismində qatıldığım Milli Uğur Mükafatı gecəsində “Qızlarımız oxusun” layihəsi çərçivəsində “İlin

yazarı" mükafatı ilə təltif olunanda diqqətimi cəlb etdi. Və müəllifi olduğu "Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən..." kitabı "Kitabçı" kitab evindən əldə edib incələmək qərarına gəldim. Təfsilata keçməzdən əvvəl onu vurğulamaq istəyirəm ki, eyni ilə Südabə Məmmədovanın (Mətanətli) "Debüt"ü kimi bu kitab da məni heyrətləndirdi. Sual açıq qalır: Gənc xanım müəlliflərimiz hansı ehtiyacdan bu mövzuya üz tuturlar? Onların buna vadar edən səbəblər hansılardır!? Bütün bunlar tamam başqa bir söhbətin mövzusudur. Bu dəfə yuxarıda qeyd etdiyim kimi söhbətimizi Şahnaz xanımın adı çəkilən kitabı üzərindən qurmağa çalışacağam.

Müasir Azərbaycan ədəbiyyatında qadın mövzusunun yeni çalarlarla ifadəsi diqqət çəkən istiqamətlərdən biridir. Bu istiqamətdə gənc müəllif Şahnaz Səxavətqızı öz səmimi və cəsarətli çıxışı ilə seçilir. 2002-ci il mayın 15-də dünyaya göz açan, əslən Naxçıvandan olan və hazırda Bakı şəhərində yaşayan müəllif peşəkar ədəbiyyat cameəsindən gəlməsə də, daxili ehtiyac və mənəvi məsuliyyət hissi ilə yazı dünyasına qədəm qoyub. Və artıq yazarlar cameəsinin sayılıb seçilən qələm sahiblərimdən biri kimi "İlin yazarı" nominasiyasında nüfuzlu müstəqil bir qurum tərəfindən təltif olunması artıq bu sahədə ciddi addımların atıldığını göstərən kifayət qədər yüksək nəticədir. Onun ədəbi yolunun başlanğıcı bir iddiadan deyil, bir çağırışdan doğur — qadınların səsi olmaq çağırışından. Müəllifin özünün də vurğuladığı kimi, bu yolun ən böyük ilham mənbəyi və dayağı anası olub. Bu fakt kitabın ruhuna xüsusi istilik və səmimiyyət qatır. Çünki burada yazılanlar yalnız nəzəri fikirlər deyil, həyatın içindən süzülmüş duyğular, yaşanmış müşahidələr və qadın taleyinə həssas münasibətin ifadəsidir.

"Qadın yaz hekayəni … …" — bu ad özü-özlüyündə çox ciddi bir çağırış, hətta müəyyən mənada əmr kimi səslənir. Bu, sadəcə kitab adı deyil, bir çağırış, bir müraciət, bir oyanış siqnalıdır. Müəllif qadınlara səslənərək onları heç kimə və heç nəyə bağlı olmadan, yalnız öz güclərinə arxalanaraq yaşamağa təşviq edir. Bu çağırış müasir dövrün

ən aktual sosial və mənəvi məsələlərindən birinə toxunur. Qadının özünü tanıması və öz səsini ucaltmasının vacibliyini vurğulayır.
Şahnaz Səxavətqızı qadına yazmağı təklif edir. Yazmaq burada yalnız qələm və kağız mənasında deyil; öz həyatını yazmaq, taleyinə sahib çıxmaq, seçim etmək, susmamaq, varlığını qəbul etdirmək mənasındadır. O, inanır ki, qadının hekayəsi onun öz səsidir və bu səs boğulmamalıdır.

Müəllifin sözləri ilə desək:
***“Arxanızda heç kim olmasa belə, içinizdəki gücə inanın və bu həyatda əsla məğlub olmayın.”***
Bu cümlə kitabın ideya qayəsini ümumiləşdirən əsas tezisdir. Burada qadına verilən mesaj aydındır: güc kənarda deyil, daxildədir.
Şahnaz Səxavətqızı tibb sahəsində təhsil alıb. Bu məqam onun ədəbiyyatçı olmadığını göstərsə də, insanı, insan orqanizmini; cism və ruh olaraq daha yaxşı tanıya biləcəyi barədə ilkin məlumat ötürür. Və bu sözün əsl mənasında belədir. Onun haqqında söhbət açdığımız qələm təcrübəsi bu barədə fikir söyləməyimizə ciddi əsaslar verir.
Şahnaz Səxavətqızının peşəkar yazıçı kimi fəaliyyətə başlamaması, əslində, bu kitabın dəyərini daha da artırır. Çünki burada ədəbiyyat akademik ambisiya deyil, daxili ehtiyacdır. O, yazı dünyasına bir müəllif kimi deyil, bir qadın kimi daxil olub. Və qadından yazır. Qadına “Yaz!’ deyir. Bu yanaşma kitabın dilində də hiss olunur — sadə, anlaşıqlı, emosional və birbaşa. Müəllif oxucu ilə məsafə saxlamır; o, tribunadan deyil, qadının yanında dayanaraq danışır. Bu isə publisistik üsluba canlılıq və təsir gücü verir.

Kitabın əsas xətti qadının özünə inamıdır. Müəllif qadının kiminsə kölgəsində deyil, öz işığında yaşamasını təbliğ edir. Cəmiyyətin stereotipləri, ailə və sosial basqılar, qadının susdurulmuş arzuları — bütün bunlar kitabın fonunda dayanır. Lakin müəllif qaranlığı təsvir etməklə kifayətlənmir; o, işığı göstərir.
Bu əsər bir növ psixoloji və mənəvi motivasiya mətnidir. Burada qadına deyilir: sən tək deyilsən, amma tək olsan belə, zəif deyilsən.

Sənin səsin var və o səs eşidilməlidir.

Şahnaz Səxavətqızının gənc nəsli təmsil etməsi də mühüm məqamdır. 2000-ci illərdə doğulan bir müəllifin qadın mövzusuna yanaşması, müasir sosial reallıqlarla iç-içə formalaşıb. Bu, kitabın ideyasında dinamika və çağdaşlıq yaradır.

O, qadına mərhəmət obyekti kimi deyil, güc mənbəyi kimi baxır. Bu baxış tərzi yeni düşüncə modelinin göstəricisidir. Qadın artıq müdafiəyə ehtiyacı olan deyil, özünü müdafiə edə bilən, öz yolunu seçən, öz taleyini yazan bir fərddir.

"Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən..." kitabı bir ədəbi hadisədən daha çox, mənəvi bir çağırışdır. Bu əsər qadınlara ünvanlanmış səmimi bir məktub, daxili gücə inamın tərənnümüdür. Şahnaz Səxavətqızı bu kitabı ilə göstərir ki, yazmaq üçün yalnız qələm deyil, ürək lazımdır. Və o ürək qadının öz hekayəsini yazmağa qadirdirsə, deməli, cəmiyyət də dəyişməyə qadirdir.

Çünki hər qadının yazdığı hekayə — bir az da azadlığın hekayəsidir. Ədəbiyyatımızda qadın mövzusu hər zaman aktuallığı ilə seçilib. Lakin bu mövzunun qadının öz dili, öz baxışı və öz daxili etirafları ilə ifadəsi xüsusi əhəmiyyət daşıyır. Gənc yazar Şahnaz Səxavətqızının "Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən..." adlı kitabı da məhz bu baxımdan diqqət çəkən, düşündürən və oxucunu öz daxili dünyası ilə üz-üzə qoyan bir əsərdir.

2025-ci ildə Bakı şəhərində "Vektor" Beynəlxalq Nəşrlər Evində çap olunan, 168 səhifədən ibarət olan bu kitab ilk növbədə bir çağırışdır. Adın özündəki imperativ –**"yaz!"** əmri qadına ünvanlanmış bir müraciət, bəlkə də uzun illər susdurulmuş, kölgədə qalmış duyğuların dilə gətirilməsi üçün bir təkan rolunu oynayır. Müəllif burada təkcə fərdi hekayəni deyil, bütöv bir qadın talelərinin ümumiləşmiş mənzərəsini təqdim edir.

Kitabın başlıca ideyası qadının öz hekayəsinin müəllifi olmasıdır. Əsər oxucuya xatırladır ki, qadının taleyi başqalarının qələmindən deyil, onun öz ürəyindən süzülən sözlərlə yazılmalıdır. Bu, həm ədəbi, həm

də sosial mesajdır. Çünki qadının cəmiyyətdə rolu, ailədə mövqeyi, daxili mübarizəsi və arzuları çox zaman stereotiplərin kölgəsində qalır.

Şahnaz Səxavətqızı isə bu stereotipləri qırmağa çalışır. Onun qələmində qadın yalnız ana, həyat yoldaşı və ya cəmiyyətin müəyyən çərçivələrə saldığı obraz deyil; o, düşünən, hiss edən, qərar verən və taleyini dəyişmək gücünə malik bir fərddir. Kitabın ideya xətti qadının özünü kəşf etməsi, daxili azadlığına qovuşması və öz səsini tapması üzərində qurulub.

Əsərdə publisistik çalar açıq şəkildə hiss olunur. Müəllif bədii ifadə ilə yanaşı, oxucuya birbaşa müraciət edir, onu düşünməyə, mövqe bildirməyə səsləyir. ***“Sənin səsin, sənin hekayən…”*** ifadəsi sadəcə poetik bir deyim deyil; bu, həm də vətəndaşlıq mövqeyidir.

Kitab qadınlara ünvanlansa da, əslində bütövlükdə cəmiyyətə mesaj verir. Çünki qadının susması cəmiyyətin susmasıdır, qadının danışması isə cəmiyyətin oyanışıdır. Bu baxımdan əsər sosial-psixoloji aspektdən də əhəmiyyətlidir.

Müasir Azərbaycan ədəbiyyatında qadın müəlliflərin sayı və təsiri artmaqdadır. Şahnaz Səxavətqızının bu kitabı həmin prosesin davamı kimi qiymətləndirilə bilər. O, öz qələmi ilə qadın dünyasının incəliklərini, ağrılarını, ümidlərini və arzularını səmimi şəkildə ifadə edir.

Kitabın redaktoru professor Elçin İsgəndərzadə, texniki redaktoru və dizayneri Şükufə Əhmədli Davudova olmuşdur. Bu fakt da əsərin peşəkar yanaşma ilə hazırlandığını göstərir. Nəşrin “Vektor” Beynəlxalq Nəşrlər Evində işıq üzü görməsi isə onun elmi-ədəbi mühitdə ciddiyyətlə qarşılandığını təsdiqləyir.

Kitabda qadın mövzusunun yeni nəfəs, yeni baxış və yeni ifadə tərzi ilə təqdim olunması xüsusi əhəmiyyət daşıyır. Şahnaz Səxavətqızının “Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən…” adlı kitabı da məhz bu mənəvi ehtiyacdan doğan, qadının daxili aləmini, gücünü və varlığını sözün işığında təqdim edən dəyərli ədəbi nümunədir.

Kitabda qadın təkcə bir cinsin adı deyil, bir varlığın, bir gücün, bir sevginin və bir həyatın adıdır. Bu yanaşma artıq qadını sosial rolların çərçivəsindən çıxararaq onu müstəqil, bütöv və dəyərli insan kimi təqdim edir. Müəllifin ***"Sən yalnız deyilsən"*** müraciəti isə sadəcə ədəbi ifadə deyil, bir çağırışdır – qadına öz səsini eşitdirmək, öz varlığını təsdiqləmək çağırışı.

Mətnin ən təsirli məqamlarından biri qadının ***"həyatın ilk nəfəsi"*** kimi təqdim olunmasıdır. Ana, bacı, ömür yoldaşı – bütün bu sosial rollar sadalanır, lakin müəllif xüsusi vurğulayır ki, qadın hər şeydən əvvəl insandır. Bu fikir həm humanist, həm də fəlsəfi baxımdan mühüm məqamdır. Çünki qadını idealizə etmədən, onu mifləşdirmədən, ilk növbədə insan olaraq qəbul etmək bərabərlik düşüncəsinin əsasını təşkil edir.

Şahnaz Səxavətqızının təqdimatında qadın nə zəifliklə, nə də sadəcə zərifliklə ölçülür. Onun daxilində həm fırtına, həm də səssiz bir dəniz var. Bu bədii paralel qadının daxili dünyasının mürəkkəbliyini, emosional dərinliyini və eyni zamanda dözümlülüyünü göstərir. Qadın güclüdür, lakin bu güc zorakılıqda deyil – səssizliyində, baxışında, səbrində və sevgisindədir.

Bu yanaşma publisistik baxımdan da mühüm mesaj verir: qadının gücü fiziki üstünlükdə deyil, mənəvi bütövlükdədir. O, dünyanı zorla deyil, sevgi ilə dəyişdirir.

Mətnin başqa bir önəmli xətti qadının görünməyən əməyinin vurğulanmasıdır. Müəllif yazır ki, qadın bütün dünyanı yaratmaqla məşğuldur, amma çox vaxt özü gözə görünmür. Bu fikir cəmiyyətin illərlə formalaşmış stereotiplərinə incə bir tənqiddir. Qadın pərdə arxasında qalır, amma həyatın bütün sahələrində iz qoyur. Publisistik baxımdan bu, sosial mesajdır: qadının əməyinə, zəhmətinə və varlığına görünən dəyər verilməlidir.

Kitabın ruhunda qadın sevgi qaynağı kimi təqdim olunur. O, dağılanı bərpa etməyə, xarabanı saraya çevirməyə qadirdir. Bu ifadə simvolik məna daşıyır – qadın ailədə, cəmiyyətdə, hətta milli-mənəvi

mühitdə yenidənqurucu rol oynayır.

Burada müəllif qadını passiv obraz kimi deyil, yaradıcı və dəyişdirici qüvvə kimi təqdim edir. Qadın sadəcə mövcud deyil, o, həyatın hər zərrəsinə məna qatır.

Bu kitab qadına öz hekayəsini yazmaq cəsarəti verir. Onu susmamağa, öz varlığını qəbul etməyə və öz gücünə inanmağa çağırır. Şahnaz Səxavətqızının dili sadə, lakin təsirli və emosionaldır. O, mürəkkəb fəlsəfi ideyaları ağır terminlərlə deyil, səmimi və ürəkdən gələn ifadələrlə təqdim edir. Bu da kitabı geniş oxucu kütləsi üçün anlaşılan və doğma edir.

Bu kitab müasir Azərbaycan ədəbiyyatında qadın mövzusunun dərin, humanist və publisistik baxışla işlənmiş nümunələrindən biridir. O, qadını nə mücərrəd ideal, nə də aciz obraz kimi göstərir. O, qadını həyatın qəhrəmanı, səssiz gücü və görünməyən dayağı kimi təqdim edir.

***"Qadın yaz hekayəni: sənin səsin, sənin hekayən…" – əslində bir çağırışdır:***

***–Qadın yazmalıdır.***

***-Qadın danışmalıdır.***

***-Qadın görünməlidir.***

Çünki qadın bir cinsin adı deyil – bir dünyanın adıdır.

Şahnaz Səxavətqızının bu əsəri müasir oxucu üçün həm düşündürücü, həm də ruhlandırıcı bir mənbədir. O, qadın kimliyinin, qadın iradəsinin və qadın sözünün dəyərini bir daha xatırladır. Və ən əsası, hər bir qadına belə bir mesaj ünvanlayır: sənin hekayən dəyərlidir, çünki o, sənindir.

Bu kitab qadına acımaq üçün deyil, onu güclü görmək, gücünü xatırlatmaq və öz hekayəsinin müəllifi olmağa təşviq etmək üçün yazılıb. Burada qadın nə qurban, nə də idealizə olunmuş mifdir. O, yaşayan, düşünən, mübarizə aparan və yaradan bir insandır.

Nəticə etibarilə, Şahnaz Səxavətqızının bu əsəri qadın kimliyinin poetik-fəlsəfi portretidir. Bu kitab hər bir qadına ünvanlanmış bir

məktub, hər bir oxucuya isə düşünmək üçün bir sualdır: ***"Sən öz hekayəni yazmağa hazırsanmı?"***

Bu əsər qadın səsinin susmadığını, sadəcə bəzən eşidilmədiyini xatırladır. Və ən əsası, o səsin yenidən yüksələcəyinə inam aşılayır.

Sona qədər həmsöhbət olduğunuz üçün təşəkkür edirəm. Sağ olun.

*14.02.2026. Bakı.*

**Müəllif: Zaur USTAC**

***AYB və AJB-nin üzvü, "Yazarlar" jurnalının baş redaktoru, şair-publisist, tərcüməçi-nasir***

**ZAUR USTACIN DİGƏR YAZILARI**

**ŞAHNAZ SƏXAVƏTQIZININ YAZILARI**

**Oxuyun >> Gözündə tük var**

**Zaur Ustacın şeirləri haqqında**

**YAZARLAR.AZ**

**I>>>>>>BU HEKAYƏNİ MÜTLƏQ OXU<<<<<<I**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**Bahar Bəxtiyarqızının ədəbi portreti**

Müasir Azərbaycan ədəbiyyatında yeni adların meydana çıxması təsadüfi deyil; bu, zamanın, düşüncənin və daxili ehtiyacın diktə etdiyi bir prosesdir. Bu prosesin diqqətçəkən simalarından biri də yazıçı, esseist Bahar Bəxtiyarqızıdır. Onun yaradıcılığı insanın daxili aləmini, düşüncə qatlarını və varlıq suallarını səssiz, lakin dərin bir dillə ifadə etməsi ilə seçilir.

Bahar Bəxtiyarqızı 13 mart 1992-ci ildə Bakı şəhərində anadan olub. Əslən Sabirabad rayonundan olan müəllif hazırda Bakı şəhərində yaşayır və yaradıcılıq fəaliyyətini də burada davam etdirir. Onun həyat yolu paytaxtın mədəni mühiti ilə kənd köklərinin mənəvi saflığını birləşdirən maraqlı bir sintez yaradır.

Orta təhsilini Bakı şəhəri 49 nömrəli İntellekt liseyində alan Bahar Bəxtiyarqızı uşaq yaşlarından ədəbiyyata xüsusi maraq göstərib. Sözə, düşüncəyə, insanın daxili dünyasına qarşı formalaşan bu həssas münasibət onun yaradıcılıq taleyinin əsas bünövrəsini təşkil edir. Hələ erkən yaşlardan müşahidə qabiliyyəti, hissləri incəliklə dərk etmək bacarığı və düşüncəni yazıya köçürmək ehtiyacı onun fərdi yaradıcılıq yolunu müəyyənləşdirib.

Müəllif 13 yaşından etibarən bədii ədəbiyyat oxumağa başlamış, paralel olaraq yazı ilə məşğul olmuşdur. Bu mərhələdə o, klassik və müasir ədəbiyyat nümunələrindən bəhrələnərək öz daxili dünyasını kəşf etməyə çalışıb. Uzun illər yazarlıq fəaliyyəti Bahar Bəxtiyarqızı üçün daha çox şəxsi yaradıcılıq mərhələsi kimi davam edib. O, bu dövrdə yazını bir ünsiyyət vasitəsindən çox, özünə hesabat, daxili sükutun dili, ruhun gündəliyi kimi qəbul edib.

Gündəlik qeydlər, bədii parçalar və esselər müəllifin daxili müşahidələrinin, psixoloji axtarışlarının və həyatla dialoqunun yazılı ifadəsinə çevrilib. Bu yazılar Bahar Bəxtiyarqızının ədəbi dünyasını formalaşdırmaqla yanaşı, onun yaradıcılığında səmimiyyət və təbiiliyin əsas xətt olmasına səbəb olub.

Oxucu ilə ilk rəsmi görüş isə 2024-cü ildə baş tutub. Həmin ildə müəllifin ilk kitabı — “əlvida deməyə tələsmə” işıq üzü görüb. Bu kitab, adından da göründüyü kimi, ayrılıq, zaman, itki və insanın içində qalan sözlər mövzusuna toxunur. Əsər oxucunu tələsik qərarlardan, ani vida anlarından çəkindirən bir düşüncə çağırışı kimi dəyərləndirilə bilər. Kitab müəllifin daxili səsinin artıq oxucu ilə paylaşılmağa hazır olduğunu göstərən mühüm mərhələdir.

Bahar Bəxtiyarqızının ikinci kitabı isə “Əslində mən kiməm?” adlanır. Bu əsər müəllifin yaradıcılığında yeni bir mərhələni, daha dərin fəlsəfi və psixoloji axtarışları ifadə edir. Kitab insanın özünüdərk prosesi, daxili parçalanma, cəmiyyətlə fərd arasındakı ziddiyyətlər və şəxsiyyət sualı üzərində qurulub. Müəllif bu əsərdə oxucunu yalnız oxumağa deyil, düşünməyə, sual verməyə və öz daxili aləmi ilə üzləşməyə dəvət edir.

Bahar Bəxtiyarqızının yaradıcılığı publisistik və bədii düşüncənin qovşağında dayanır. Onun yazıları pafosdan uzaq, lakin emosional dərinliyi ilə seçilir. Müəllif oxucuya hazır cavablar təqdim etmir; əksinə, suallar yaradır, düşüncə üçün boşluqlar saxlayır və insanı öz daxili dialoquna qaytarır:
-“Əlvida deməyə tələsmə” insan münasibətlərində ən kövrək, amma ən təhlükəli nöqtəyə — yalanla qorunan sevgiyə toxunan psixoloji-emosional bir əsərdir. Kitabda gənc bir qızla gənc bir oğlanın münasibəti üzərində qurulan hadisələr əslində təkcə iki insanın hekayəsi deyil, itirmək qorxusu ilə susan minlərlə insanın daxili dramıdır.

Onlar bir-birini sevirlər, amma bu sevgi dürüstlük üzərində yox, gizlədilən həqiqətlər üzərində formalaşır. Əvvəl oğlan yalan danışır, sonra qız. Hər iki yalanın kökündə eyni qorxu dayanır: sevgini itirmək qorxusu. Amma yazar incə bir mesaj verir — insan bəzən sevdiyini itirməmək üçün yalan danışdığını düşünür, əslində isə yalanın özü itkinin başlanğıcı olur.

Bu kitabda oxucuya aşılansa romantik sevgi deyil, sevginin

məsuliyyətidir. İnsanlar burada bir-birinə yox, daha çox öz qorxularına aşiq olurlar. Həqiqəti deməyə cəsarət etməyən qəhrəmanlar zamanla yalanın içində boğulur və sonda ən asan yolu seçirlər — əlvida deməyə tələsməyi.
Müəllif oxucuya açıq sual ünvanlayır:
Sevgi həqiqətsiz yaşaya bilərmi?
və cavabı da sətiraltı verir: Sevgi yalanla qorunmur, yalanla məhv olur.

“Əlvida deməyə tələsmə” ayrılıq hekayəsi olmaqdan çox, danışılmamış həqiqətlərin romanıdır. Bu kitab oxucunu yalnız oxutmur, düşündürür, öz münasibətlərinə güzgü tutur və pıçıldayır:




Bəzən insan əlvida deməyə tələsmir, sadəcə həqiqəti deməyə cəsarət etmir.




-Bahar Bəxtiyarqızının "Əslində, Mən Kiməm?" adlı kitabı oxucunu sadəcə bir hekayələr toplusu ilə deyil, insanın daxili dünyasına yönəlmiş psixoloji və mənəvi bir yolçuluqla qarşılayır. Bu əsər özünü axtaran, keçmişi ilə mübarizə aparan və qorxularının kölgəsində yaşayan insanların səsini əks etdirən güclü bir çağırışdır.

Kitabın əsas mövzusu müxtəlif talelərə sahib insanların psixoloq yanına gəlişi üzərindən qurulub. Hər bir obraz fərqli həyat hekayəsi, fərqli ağrılar və qorxularla oxucunun qarşısına çıxır. Onları birləşdirən isə eyni sualdır: "Əslində, mən kiməm?" Psixoloqla aparılan söhbətlər sadəcə terapiya seansları deyil,

eyni zamanda insanın özü ilə üz-üzə qalmasının, keçmişin dərin qatlarına enməsinin simvoludur.

Əsərdə qəhrəmanlar keçmişlərindən qaçmırlar, əksinə onunla üzləşirlər. Uşaqlıq travmaları, yarımçıq qalan hisslər, bastırılmış qorxular bir-bir üzə çıxır. Müəllif bu prosesləri incə psixoloji detallarla təsvir edərək oxucuya göstərir ki, insanı azad edən məhz həqiqətlə üzləşməkdir. Keçmişlə barışmadan gələcəyə sağlam addım atmaq mümkün deyil.

"Əslində, Mən Kiməm?" kitabının əsas mesajı aydındır: insan keçmişi ilə yaşamamalıdır, amma ondan qaçmaq da çıxış yolu deyil. Keçmiş insanın bir parçasıdır və onu qəbul etmək, ondan dərs çıxarmaq insanın daxili gücünü üzə çıxarır. Qorxuların üzərinə getmək, onlara meydan oxumaq isə insanı özünün ən güclü versiyasına çevirir.

Bu kitab oxucuya psixoloji rahatlıqla yanaşı, dərin bir özünüdərk mesajı ötürür. Bahar Bəxtiyarqızı əsəri ilə göstərir ki, "mən kiməm?" sualının cavabı kənarda deyil, insanın öz içində gizlidir. Onu tapmaq üçün isə cəsarət, səmimiyyət və özünlə üzləşmək lazımdır.

"Əslində, Mən Kiməm?" — özünü tanımaq istəyən hər kəs üçün güzgü rolunu oynayan, düşündürən və dəyişməyə təşviq edən bir əsərdir.

Bu gün Bahar Bəxtiyarqızı müasir Azərbaycan ədəbiyyatında sözə səmimi münasibəti, daxili müşahidələrə əsaslanan yazı tərzi və düşüncə yönümlü əsərləri ilə seçilən gənc qələm sahiblərindən biridir. Onun yaradıcılıq yolu hələ davam edir və görünən odur ki, bu yol oxucu ilə dərin mənəvi təmaslara aparan uzun, mənalı bir ədəbi səfər olacaq.

*05.02.2026. Bakı.*

**Müəllif:** **Hacıxanım Aida**

*kitabşünas-biblioqraf*

**HACIXANIM AİDANIN YAZILARI**



## Keşləli Qaregin

*(Müqəddəs Zəfər: 3-cü Hekayə)*

Bir günlük antiterror əməliyyatı uğurla başa çatsa da, hələ də yaşayış məntəqələrdə gizlənən silahlılar mövcud olduğu üçün xüsusi yoxlanış qrupları yaradılmış, təmizləmə işləri aparılırdı. Yəqin ki, hələ bir neçə gün də gərginlik davam edəcəkdi...

...Mayor Ağaxan Qədirbəyli bu günkü "təmizləmə əməliyyatı"nın başa çatdığını elan elədi. Əsgərlərinə bir güllə da atmadan zərərsizləşdirdikləri sepatçıları qərargaha aparmaq tapşırığı verib, özü piyada yola düşdü. Üç günün yorğunluğunu canından belə çıxarmaq istəyirdi- özü ilə tək qalmaqla. Özü ilə tək qalanda

ruhundan çıxan yoğunluq yavaş-yavaş canını da tərk edirdi. Həm də yolüstü yaxınlıqdakı posta baş çəkmək istəyirdi...

...Bugünkü iş gününün yorğunluğunu çıxarmaq üçün Günəş də Qırxqız dağının arxasında dincini almağa başlamış, ardınca soyumaqda olan al rəngli şəfəqlərini də yığışdırmaqla məşğul idi. Ağaxan da elə o şəfəqlərin arxasınca düşüb, kənddən yamaca dırmanan torpaq cığırın sağa-sola əyilməklə, ara-sıra sıxlaşan böyürtkən kollarının arasında yolçusunu azdırmağa çalışan döngələri ilə irəliləyirdi. Cığırın sağında, kolların arxasında kahaya, ya da ki, qazmaya bənzətdiyi lal qaraltı və ətrafında dincliyi ərşə çəkilmiş digər iki qaraltı nəzərini çoxdan cəlb etmişdi. XTQ mənsubu belə şübhəli məqmları diqqətdən qaçıra bilməzdi. Ağaxan da XTQ mənsubu olaraq elə həmin andan kabusa çevrilmişdi. Təkcə kabus yox, həmin andan o həm də mahir ovçu, ora-bura vurnuxan qaraltılar isə şikar idilər. Həm də bu kabus olduqca həssas, olduqca diqqətli və ehtiyatlı idi. Qaraltılara yaxınlaşdıqca onların hansısa çirkin bir planın icraçıları olduqları aydın hiss olunurdu. Həzin səmt küləyinin gətirdiyi pıçıltı səsləri bunu bir daha sübut edirdi. Bu səsləri eşidə bilmək üçün öz şikarlarına lazımi qədər yaxınlaşmışdı. Hətta payız ömürlərini başa vurmuş, ana bətnini tərk edərək torpağa qovuşmaq eşqilə ona pənah gətirmiş saralmış yarpaqların bu nankor qaraltıların ayaqları altındakı iniltili xışıltısını da eşidə bilirdi. Təkcə susan lal qaraltı idi ki, nəhayən o da cırıltı və taqqıltı səsləri ilə özünün dəmir qapı olduğunu biruzə verdi. Ardınca onun yoxa çıxma prosesi baş verməyə başladı. Qısa zaman kəsiyində o, aşağıdan başlayaraq üzü yuxarıya doğru kol-kosa və ağac budaqlarına çevrildi...

Ağaxan indi dinc dayanmayan, lal qaraltıdan istiqamət götürüb irəliləyən qaraltıları ürkütməmək üçün onların izi ilə daha ehtiyatla, səsiz-səmirsiz hərəkət edirdi. Qaraltının biri hərdən parıltı verir, digəri isə daşıdığı yükü gah qucağına alır, gah da çiyninə aşırır, hər dəfə də cürbə-cür məxluqlara bənzəyirdi. Onlar tülkü məharəti ilə pusa-pusa həmin cığırın yoxuşunda daha da görünməz olurdular. Bu yoxuşun daha çox hərəkətli olan köhnə asfalt döşəməli yola

bitişməsinə az qalırdı. Qaraltılar hündürdə yerləşən döngəyə çatıb sal daşlar arasında tam görünməz oldular. Adamdan çox böyük olan bu daşların arasından asfalt yol nişangaha çevrilirdi. Bu isə Milli Ordumuza məxsus hərbi texnikaların Ballıca istiqamətində hərəkət etdiyi yolun pusqu altında olması demək idi.

...Yaxınlığından keçəndə o, lal qaraltının qazma sığınacaq yeri olduğunu müəyyənləşdirmişdi- belə düyünləri açmaq XTQ mənsubu üçün adi hal idi. XTQ mənsubunun gözü qartal gözündən iti, pəncəsi ayı pəncəsindən güclü, ayaqları bəbir ayaqlarından yüyrək, sıçrayışı aslan sıçrayışından vahiməli, qəzəbi qasırğa qəzəbindən şiddətli olur. XTQ mənsubu xəyanəti bağışlamaz; dost dediyini darda qoymaz; yaralısını, şəhidini hərb meydanında atıb qaçmaz; başladığı işi yarımçıq saxlamaz. XTQ mənsubu olmaq- ən çıxılmaz vəziyyətdən çlxlş yolu tapmaq, ən mühüm anda qərarların ən düzgünü qəbul etmək, məqamında Tanrı qədər mərhəməti olmağı bacarmaq deməkdir...

Qabaqdakı çaxır çəlləyinə oxşayan qaraltı daşların ən hündürünün üstünə sərilib əlindəki başı uzunsov toppuzu xatırladan alətin uzunsov-şiş ucunu yola sarı tuşlayıb yerini rahatlamaqla məşğul idi. İkinci- uzaqdan quyruğu hərdənbir parıltı verən gecə böcəyinə bənzəyən, yaxınlaşdıqca isə daha çox qurdun pəncəsindən güclə qurtulmuş yaralı quyruğunu qucağında gizlətməyə çalışan tülkü kimi pusa-pusa sal daşların ayaqları altda gizlənməyə münasib yer tapmağa can atır, aradakı boşluqdan oğrun-oğrun yola baxır, öz tülkü məqamının yetişməsini gözləyirdi.

Əsgərlərimizi gecə növbəsinə aparan hərbi yük maşını yaxınlaşmaqda idi, iki-üç dəqiqə yetərli idi ki, qumbaraatanın nişangahına çevrilsin. Artıq mövqelənmiş qaraltıların öz alarında 7-8 metrə qədər məsafə olardı. Onların birini atəşlə məhv etmək, ikincisinin hədəfinə çevrilmək təhlükəsi yaradırdı. Çaxır çəlləyini dəlikləyib ikinci tərəfi nişangaha götürənə qədər tülkü bicliynin güdazına düçar olar, əksinə hərəkət etsəydi onda digərinin hədəfinə çevirərdi. İstənilən halda yük maşını hədəf olaraq qalacaqdı. Vaxt isə, alıcı quş cəldliyi ilə, artıq bir neçə addımlığına çatdığı birincini,

yəni, çaxır çəlləyini zərərsizləşdirməyə çatardı. Tülkü aşağıdan boylanıb nə baş verdiydini anlayana qədər çaxır çəlləyi iy verməyə başlayardı...

...Ağaxanın illərin gərgin məşqləri, təlimləri sayəsində bu an məngənəyə çevrilən güclü qollarının arasında sıxılmış çaxır çəlləyi heç çabalamağa da imkan tapmadı. Çünki Ağaxan onun boynunu sıxırdı, üstəlik peysərinə necə zərbə vurmuşdusa, daşa dəyib yerbə-yerdən deşilmişdi. Ardınca donuz boynu arxaya burulanda “qulunc sındırılması” səsi ilə xırçıldamışdı. Elə həmin andan da başı ilan ağzında sıxılan qurbağanın ətraflarını xatırladan qolları və qıçları əsim-əsim əsirdi. Ağzından tökülən maye köpüklü çaxırı xatırladırdı. Ağaxan üçün bu səhnəyə tamaşa eləmək maraqlı deyildi, buna heç vaxtı da yox idi. İndi tülkü ovuna çıxmağın vaxtı idi.

Qoca və qozbel tülkü yuxarıda nə baş verdiyini anlamağa macal tapmamış qarşısında ölüm hökmünün surətini gördü.

-Бросай автомат и подними руки, старик!

-Qurban olum, turksan?

-Türkəm qoca, at silahı yerə, əllərini qaldır ki, boş olduğunu görüm.

-Başım usta, qurban olum.

-Çıx tülkü deşıyından, cəld ol!

-Başım usta, qurban olum.

Ağaxan yaxınlaşmaqda olan qocanı yaxalayıb yerə yıxdı, qollarını qocanın öz kəməri ilə arxadan bağladı. Bu an yük maşını da şütüyüb onların yaxınlığından keçib getdi. Ancaq maşındakılar onları görmədilər, görə də bilməzilər, aralarında sal daşlar dayanmışdı.

Qocanın avtomatını da götürüb çiyninə keçirdi. İndi onun çiynindən üç silah asılmışdı, öz avtomatı, qocanın “Kalaşnikov”u, bir də çaxır çəlləyinin qumbaraatanı. Qocanın silahına etibar etmədiyi üçün öz silahını çiynindən çıxarıb qocanın üstünə tuşladı:

-Qoca, düş qabağıma, bayaq çıxdığınız qazmaya gedirik.

-Hansı qazmaya, qurban olum? Qazma nadir?

-“Qurban olum” kəlməsini bir də işlətmə qoca, aydındır?

-Başına donum, san neca desan, man edaram.

-Yeri.

Gəlib qazmaya çatdılar. Qocanın qollarını açdı.

-Qoca, o kol-kosu təmizlə və qapını aç.

Qoca dinməzcə kolları kənara yığdı, təzəcə rənglənmiş dəmir qapı göründü.

-Qoca, kol-kos şəklini niyə çəkmisiz bu qapının üstünə, uzaqdan seçilməsin deyə?

-Başına dönum oğul, manim ela şeylardan başım çıxmaz ha.

-Yaxşı, çıxar açarı aç qapını.

-Manda haçar na gazir, ay oğul?

-Ay...-kişi deməyə dili gəlmədi.- aç də. Axırıncı sən çıxdın bu deşıkdən.

-Haa? Qoy baxım ciblarima... qocalmışam da... haa...

-Tələs görüm. Qocalmısan, get otur xarabanda, buralarda nə sü.... aç görüm, cəld ol,- Ağaxan onun ciblərini axtaranda açarı qəsdən götürməmişdi.

Qoca guya açarı xeyli axtardı. Nəhayət Ağaxanın qəzəbinə tuş gələcəyini hiss edib şalvarının cibibdən “tapdı”, qapını açdı. Ağaxan qumbaratanı açıq qapıdan içəriyə tuşladı. Gözaltı qocanı süzürdü, o, rəng verib- rəng alırdı.

-Başına dönum oğul, atma. Orda çoxlu snaryad var, ikimiz da ölarik...

-Bəlkə silahdaşlarındı orda, qoca?! Çəkil kənara.

-Yox, qurban olum, olar qaçıblar.

-Bəs sən niyə qaçmadın? Qoşulub onlara gedəydin də.

-Manim dardim ağirdir, ay bala... manim oğlum burda ölub-2020-də, onu axtarıram...

-Burda olub, ya ölüb? Anlaya bilmədim.

-Ha daa... ölub... meyidini tapa bilmiram... sanin kimi cavan idi...

-Qoca, ağzına gələni danışma, mən Vətənimi qoruyuram, siz nə sü... veyillənirsiz burda?

-Buy, qadan alım, man da Bakidanam da... Bakidan, Keşladan...

-Deyirəm axı, bizim dili harda belə öyrənmisən. Bəyənmədiniz bizi, bu da axırı.

-Ha bala, biz nankor çıxdıq. Ehh... Bakida ela dostlarım qaldi... Burnumun ucu göynayir... Neca dostlar qaldi... Mani Keşlada hami taniyirdi. Man Keşlali Qaragenam...

- Keşləli Qaragen? Bu ad mənə tanış gəlir. Sənin həyət evlərin vardı, kirayəyə verirdin?

-Ha, vardi. Montin bazari eşitmisan? Düz onun yaninda on otağim vardi. Hamısıni da kiraya verirdim. Arvdimin da doqquzmaratabada manzili vardi...

-Dayan, dayan... sən məni çaşdırdın. Arvadının adı Roza idi?

-Ha, Roza idi, man ona Rozanna deyirdim, haa...

-Vay səni, dünyanın işinə bax ey... Çəkil qapıdan qoca.

Qoca dizlərini yerə atıb yalvarmağa başladı:

-Qurban olum, atma. Orda lap çox snaryad var, qranata var, minamyot var... çox şey var. Partlasa, tikamız da tapilmaz...

-Nə çox istəyirsən canını qoca?

-Sana da qiymiram da, qurban olum.

-Dedim ki, mənə "qurban olum" demə. Aydın olmadı sənə?

-Ha, oldu, demaram. Sandan soruşum qoy, Rozannanı hardan taniyirsan?

-Mən uşaq olanda onun mənzilində kirayədə qalmıışıq. Onda beş yaşım olardı.

-Ha, yadinda qalib deməli. Çox xeyirxah arvad idi. Sizi da qonaq saxlayib. Yağın Çapayevdaki manzilin deyirsan. Ay sani balaca, man sani orda gormuşdum. Haa... Atanın adı... görum... Mir.... ara, seyid adi idi da. Ona dedim ara, gal sana Montinda hayat evi verim yaşa da. Galmadi ki... ara, nə idi onun adı? Mir...

-Mirağa. Atamın adı Mirağadır. Səni görsə, dəqiq bilirəm ki, boğub öldürər. Arvadının hayfını səndən çıxar. Arvadın hardadır, o da buralarda gizlənib? Bəlkə bu kaftar yuvasındadır, hə?

-Allaxin raxmatina getdi, oğlumun dardina doza bilmadi...

Qoca hönkürüb göz yaşlarını axıtmağa başladı.

-Yaxşı, sakit ol görək. O yaxşı dediyin arvad atamdan 6 ayın pulunu qabaqcadan almışdı. Hələ mətbəxi də atama təmir elətdirmişdi. 6 ay tamam olmamış mənzili satıb getdi Moskvaya, bizi də atdı çölə. Gedib Moskvadan uzun uzadı bir şikayət ərizəsi yazdı. Az qalmışdı mənzili alanı damlasınlar. Şahidlərin köməyi ilə, bir də ki özünün sənədlərə atdığı imzalar üzə çıxandan sonra işə xitam verildi.

-Ara, man hardan bilim bu işlari? Ara, böyraklarım partlayir, qoy gedim peşap elayim. San Allah icaza ver.

-Sən Allah tanıyırsan, qoca?

-Ela da taniyiram ki. Atam dindar olub, ona gora adimi Qaragen qoyub da.

-Hə, əvvəlcədən bilirmiş də, keşişinizin adı Qaragen olacaq.

-Keşişlarimizin adi ya Vazgen olur, ya da Qaragen,- qoca qımışdı, eybəcər seyrək dişləri göründü.

Ağaxan başı ilə "get" işarəsini verdi, tapşırdı ki, uzağa getməsin, nişangahdadı.

Ağaxan onunla ovladığı siçanla oynayan pişik kimi davranırdı. Bu qoca tülkünün gözlərindən həm biclik, həm qəddarlıq, həm satqınlıq, həm şərəfsizlik, həm də oğraşlıq yağırdı. Onun yazıq, rəzil görkəminin arxasında çox əzazil, yırtıcı, həm də çoxlu məlumatlara malik olan amansız bir düşmənin gizləndiyini də əminliklə bildirdi. Elə bu məqsədlə də ona səhv, yaxud səhvlər etməyə şərait yaradırdı. O səhvləri isə yalnız XTQ mənsubu aşkarlaya bilərdi.

Tülkü, tülkü təmbəki,
Quyruğunda nəlbəki...

Ancaq bu qoca tülkünün quyruğundakı nəlbəki deyil, ölüm silahı idi. Öz tülkü bicliyi ilə quyruğundan onu götürüb tülkü qollarının arasında gizlətməyə çalışsa da, Ağaxan qartal baxışları ilə onun 45 mm-lik avtomat silahı olduğunu dərhal müəyyənləşdirmişdi. Qocanı tərksilah edəndən sonra ciblərini axtarmış, tipik erməni iyi verən gödəkçəsinin sağ yan cibindən "Makarov" tapançasını, sol yan

cibindən xəritəni və qoltuq cibindən sənədlərini tapıb çiynindən asdığı çantaya, çaxır çəlləyinin sənədlərini qoyduğu yerə qoymuşdu.

Qoca qazmanın qapısının yanından keçəndə şübhəli şəkildə ətrafa baxdı, bir qədər irəlidə basdırılmış dəmir dirəyə astaca dirsək vurdu. Bu Ağaxanın diqqətindən yayınmadı. Onun ardınca gedib dirəyi nəzərdən keçirdi. Təxminən yerdən bir metr yuxarıda dirəyə bir düymə bərkidilmişdi. Düymədən çıxan elektrik naqili dirəkdə açılmış deşiyə girib yox olurdu. Başını qaldırıb yuxarıya baxdı- dirəyin ucuna rabitə qurğusu və siqnal ötürücü antenna bərkidilmişdi. Qoca duymasın deyə sakitcə geriyə döndü. Telefonu çıxarıb qərargaha mesaj göndərmək qərarına gəldi. Lakin dalğa yox idi. Ancaq əmin idi ki, döyüşçü yoldaşları onu tezliklə axtaracaqlar. Çünki, hələ postları yoxlamalı, keşik çəkənləri əvəzləməli idilər. Silah-sursat gizlədilən bu qazmanı nəzarətsiz buraxıb getmək olmazdı. Atəş səsi ilə də yoldaşlarına xəbər vermək düzgün olmazdı, “sülhməramlılar”ın postu daha yaxında yerləşirdi, onların duyuq düşməsi işləri korlaya bilərdi. Həm də ki, qoca düyməni basmaqla kiməsə siqnal göndərmişdi, bəlkə elə onlara?!..

Qoca qayıdıb gəldi. Ağaxan qazmanın qapısını bağlatdırıb yenə qocanın qollarını arxadan bağladı.

Ağaxan imkan tapıb onun RF tərəfindən verilmiş pasportunu nəzərdən keçirmişdi.

- Bəlkə sənin adın Qaregindi? Sizin milli qəhrəmanınız... Dadamyan Qaregin Sumbativiç. Qeydyyatda olduğun ünvan da Tula şəhəri. Hə, qoca?

-Başına dönum, ayaqlarin altinda ölum, burax mani gedim cahannama. Radd olum gedim, harda koparam, koparam. Sanin uçun na parqi var, Qaragen, ya Qaregin... Qoy galim sanin ayaqlarindan öpim...

-Dayan görüm! Sən heç köpən qocaya oxşamırsan. Narahat olma, köpməyə imkanın olacaq. İndi mənə bir az özündən danış. Harada işləyirdin Bakıda? Nə işlə məşğul olurdun?

-Ölduracaxsan? Günahsız qoca kişini?

-Sənsən günahsız? Öldürəsi olsaydım nazınla niyə oynayırdım?! Qorxma. Suallarımı cavablandır, fırlatma söhbəti.

-Qoy deyim da sana. Zavodda, beton buraxirdik. Ara, na dostlarim vardi orda. Har hapta sonu baliq tutmağa gedirdik. Zavod maşin ayirmişdi, ha. Yayda da gedirdik Nabrana. Ozumuzun çadirlarimiz olurdu. Ara, zavodun stalovasindan camdayi pulsuz goturturduğ gedanda, man kabab bişirirdim. Profsayuzun şotuna verirdi qoyun camdağini zavod. Ara, birini vermirdi, ikisni vermirdi... ara adamin sayina gora dordunu, beşini... Basdirma elayirdim, ustuna çaxir sapirdim... ara neca yumşax olurdu... Ara, biz nayi gözlayirik? Geca düşür ki...

-Gözlə, biləcəksən. Sən goplamağa davam elə. Niyə qatdınız aranı, ay bədbəxtlər? Bakı da az qala sizin əlinizdə idi də. Hökümət idarəçiliyinin bütün mərhələlərində təmsil olunurdunuz, hər yerdə adamlarınız vardı, kef edirdiniz...

-Ha, vardi. Har şeyimiz vardi. Dostlarim da... Ağlimiz olmadi...

Uzaqdan maşın işıqları göründü. Ağaxan hər ehtimala qarşı qumbaraatanı əlində hazır saxlamışdı.

“Sülhməramlılar”ın zirehli texnikası yaxınlaşıb Ağaxanın 25-30 metrliyində dayandı. Texnikanın üstündəki projektoru düz onun gözünə yönəltdilər. Qoluna ağ lent bağlamış yekəpər bir zabit maşından düşüb bir neçə addım atıb dayandı, ucadan səsləndi:

-Кто такие? Что вы делаете здесь так поздно?

-Я офицер спецназа Азербайджанской Республики майор Гадирбейли. Теперь вы представьтесь.

-А так не видно кто мы такие?

- Представьтесь, пожалуйста. Вы находитесь на территориях суверенной Республики Азербайджан. Пожалуйста, представьтесь.

Dialoq artıq mübahisəyə çevrilirdi. Qoca məqamdan istifadə etmək qərarına gəldi. Hay-qışqırıq qopara-qopara maşına tərəf qaçmağa başladı:

-Помогите, спасите! Этот варвар насилует меня! Умоляю… спасите… Он зарезал моего зятя. Теперь меня хочет убить…

-Qoca, bir addım da atsan tikələrin dostlarının üstünə səpələnəcək. Sən ki, dost qədri bilənsən.

Yekəpər zabit hədə-qorxunun işə keçmədiyini anlayıb yumşalmağa doğru meyilləndi. Özlərinin dili ilə desək Ağaxana “мораль” oxumağa başladı. Qoca yarı yolda donub qalmışdı. Yavaş-yavaş geriyə dönüb dizləri üstə çökdü:

-P... yedim ağzimnan, ara, dadamin ağzinnan, bağişla mani...

Ordumuza məxsus PDM də gəlib çatdı. Tabor komandiri polkonik-leytnant Kərim Nəbizadə PDM-dən düşərək yekəpər rus zabitinə yaxınlaşdı:

-Вам же было сказано, не высовывайтесь. Немедленно уезжайте!

Ağaxan qumbaraatanı qazmanın divarına söykəyib antenna bərkidilən dirəyi dartıb dibindən çıxartdı. Borunun içindən, alt tərəfdən naqil çıxırdı. Baxdılar ki, naqil qazmaya girir. Döyüşçü yoldaşlarından biri Ağaxana köməyə gəldi. Qazmanın qapısını açıb naqilin akkumlyator batareyalarına birləşdirildyini müəyyənləşdirdilər. Axtarıb elektrik açarını da tapıb işığı yandırdılar. Batareyalardan daha bir naqil də tavandan çölə çıxırdı. İçəri kifayət qədər geniş idi. Doğrudan da silah-sursatla dolu olan otaqda üç cərgə sağ-sol divar boyu taxta çarpayılar da düzülmüşdü. Uzun müddət yaşamaq üçün şərait yaradılmışdı.

-Komandir, qazmanın üstündə günəş batareyaları da var. Dirəkdə isə düymə var. Qoca o düyməni basandan bir qədər sonra bunlar özlərini yetirdilər bura,- Ağaxan “sülhməramlılar”a işarə etdi.

-Hər şey aydındır. O düyməni bir də bas görüm.

Ağaxan düyməni basan kimi yekəpər zabitin əlindəki planşetin ekranı işıqlandı və sirenayabənzər siqnal səsi ətrafa yayıldı. Nəbizadə rus zabitinə baxdı.

-Что скажите, полковник?

Zabitdən səs çıxmadı. Nəbizadə planşeti onun əlindən alıb baxdı. Monitorda ərazinin xəritəsi, xəritədə isə müxtəlif yerlərdə xüsusi işarələnmiş məntəqələrin əks olunduğu aşkarlandı. Məhz

həmin məntəqələrin birini əks etdirən işarənin üstündə işıq yanıb-sönürdü. Onlar indi həmin yerdə dayanmışdılar.

Qocanın cibindən çıxan xəritə rus zabitinin planşetindəki xətirənin eyni idi. Bu ana qədər döyüşçülərimiz tərəfindən aşkarlanıb zərərsizləşdiririlmlş məntəqlər hər iki xəritədə çərçivəyə alınmışdı. Ən qəribəsi də bu idi ki, bütün məntəqələr, daha doğrusu qazmalar, bir az da dəqiqləşdirsək, "kaftar yuvaları" "sülhməramlılar"ın nəzarət postlarının yaxınlığında yerləşirdi.

Qocanın qollarını arxadan bağlayarkən Ağaxan onun qolundakı şübhəli saatı da açıb götürmüşdü. Çünki, saatın CPS proqramı ola bilərdi, ya da saatın özü partlayıcı mini bomba ola bilərdi- bir sözlə "ağıllı saat" ola bilərdi. Gözləri daim axtarışda olan bu qoca tülküdən nə desən gözləmək olardı. Əgər saatın CPS proqramı vardısa, onun şəbəkəyə qoşulması sayəsində onları qocanın quldur yoldaşları asanlıqla axtarıb tapa bilərdilər. Elə "sülhməramlılar" da onları izləyə bilərdilər. Səssiz snayper tüfəngi ilə Ağaxanı aradan götürmək onlar üçün su içmək qədər asan olardı. Qolları arxadan bağlandıqdan sonra isə qoca özü də istəmədən siçana çevrilmişdi. Ovçusu da onu oynada-oynada bu məkana gətirib çıxara bilmişdi. Siçan yol boyu nə qədər tülkü bicliyini işə salıb Ağaxanı yolda ləngitməyə çalışsa da buna nail ola bilməmişdi. Bura çatanda isə artıq quldur həmkarlarının Ağaxanı nişangah edə biləcəklərinə ümid qalmamışdı. Çünki bu ovçu çox ayıq-sayıq idi, tülkü bicliyi işə yaramırdı. Bura çatanda isə hava qaralmışdı, bir dənə də olsun ulduz görünmürdü, ay da qəsdən qara buludların arxasında gizlənmişdi. Ağaxan kimi səma da onunla "siçan-pişik" oyunu oynayırdı. İndi heç gecəgörmə cihazı da quldurların köməyinə çata bilməzdi. Çünki, belə zil qaranlıq vaxtlarda cihaz nə aydan, nə də ulduzlardan şüa qəbul edə bilmirdi, yəni işləmirdi. Son əlac yalnız borudakı düyməni basmaqla "sülhməramlılar"a siqnal ötürməkdə idi ki, bunu da edə bilmişdi. Ancaq Ağaxanın buna qəsdən imkan yaratdığını anlamamışdı. Bu dəfə tülkü bicliyi onun özünü aldatmışdı. Çünki, Ağaxan həm yolboyu öz təhlükəsizliyini təmin edə bilmişdi, həm "qazmalar"ın sirrini öyrənə bilmişdi, həm də kifayət

qədər vaxt qazanmışdı ki, yoldaşları onun axtarışına çıxsınlar. Yarım saat əvvəl Ağaxan asfaltın kənarında təyin olunmuş yerdə olmamışdı, telefonuna da zəng çatmırdı. Deməli bunun ciddi səbəbi vardı və onu hərəkət marşrutu üzrə axtarmaq lazım idi. Ağaxan bu səbəbdən qoca tülküyə imkan vermişdi ki, xilaskarlarını köməyə çağırsın, öz mühafizəsini təmin edib döyüşə hazır vəziyyətdə gözləmişdi. Bu qaranlığın zülmətində Ağaxan yenidən qartal gözlü ovçuya çevrilmişdi. "Sülhməramlılar" belə şəraitdə ona atəş aça biməzdilər. Birincisi ona görə ki, buna Ağaxan imkan verməzdi, o, dərhal qumbaraatanın tətiyini çəkərdi. İkincisi isə, Ordumuzun döyüşçüləri dərhal alıcı quş kimi onların başının üstünü kəsdirərdilər, necə ki, etdilər.

"Sülhməramlilar" tərksilah edilib qərargaha aparıldılar. Dərhal əlavə qüvvələr cəlb edilərək gecə əməliyyatına start verildi. Səhərə yaxın əməliiyat başa çatdı. Müqavimət göstərənlər yerindəcə məhv edildi. Əsir, yaralı və meyitlər qərargaha gətirildi. Yaralılara ilkin yardım edildi, ağır yaralılar isə hərbi hospitala göndərildi.

Tabor komandirinin stolunun üstündə Ağaxanın verdiyi əşyalardan savayı da xeyli əşya və sənədlər vardı. Nəbizadə əşya və sənədləri bir bir-bir nəzərdən keçirib, bir neçəsini çıxmaq şırti ilə, qalanlarını kənara qoyurdu. Nəhayət başını qaldırıb bayaqdan stolun küncündə oturub tülkü gözlərini dizlərinə zilləmiş qocaya baxdı:

-Adın, soyadın...

-Qaragendi, qurban olum.

-Bəlkə Qaregindi? Qaregin Dadamyan Sumbatoviç.

-Ha, qadan alım, eladi.

-Arvadın, uşağın, nəyin var?

-Deyim da, qurban olum. Arvadım vardı, allaxın rahmatina gedib. Bir dana oğlum da var...di. Rudik... onu tapa bilmiram... itib... burda... 3 il avval...- zır-zır ağlamağa başladı.

-Sakit ol, qoca. Hələ sorğu-sual davam edir.

-Ha, başına dönim, buyur.

-Deyirsən arvadın ölüb, oğlun da itkin düşüb, eləmi?

-Ha, qurban olum, ha.

-Bəs sən nə vaxt gəlmisən Qarabağa?

-Bu yaxinlarda galdim. Bir dapa galdim o vaxt, muhariba vaxti... oğlumu tapmadim, getdim. Anasi ölandan sonra yena galdim. Mana dedi Rudiki axtar tap, yoxsa gorum yanar...

-Arvadının adı Rozadır?

-Ha, naçannik, başına dönum. Roza idi... rahmatlik...

-Oğlun da ki, Dadamyan Rudik Qareginoviç.

-Ha.

-Yaxşı... Sən Abonu hardan tanıyırdın?- Nəbizadə gözlənilmədən söhbətin səmtini dəyişdi.

-Abo?.. Hansi Abo?... Yox... tanimiram.

-“Arçax qəhrəmanı Qareginə. 27.02.92. Abo”- yəni Xocalı soyqırımının səhəri günü... Elə bilirsən biz erməni dilini bilmirik, yoxsa sənin əməllərindən xəbərimiz yoxdur?- əlindəki tapançanın qundağındakı yazını göstərdi. – Sən doğrudan da “qəhrəman” olmusan. Bakıda “Krunq” təşkilatının fəal üzvü, Qarabağda da saqqallı quldurların biri. Sənin haqqında hər şeyi bilirik və sən axtarışda idin. İşimizi asanlaşdırdın, qoca, özün düşdün tora.

Qoca bu dəfə tülkü gözlərini zilləməyə yer, nöqtə tapa bilmirdi.

-Yaxşı saatın var, Nijde.

-Naçannik, o kimdir?

-Sənin quldur dostların arasındakı kliçkan.

-Allax mani öldursun, yooxx... man yox...

-Hə, yadıma düşdü oğlunun kliçkasıdır.

-Naçannik, bu ola bilmaz.

Nəbizadə qocanın saatını götürüb düyməsini iki dəfə basdı. Stolun üstündəki telefonlardan birindən mesaj səsi gəldi.

-Bu telefon kimindir?

-Bilmiram... yağın tutulanlardan birinin olar...

Nəbizadə qocanın telefonunu götürüb yaddaşdakı nömrələrin birinə zəng etdi. Yenə həmin telefon səsləndi.

-Nijdenin telefonuna getdi ki, zəng. Ekranında da sənin şəklin çıxdı. Bəlkə bu sənin oğlunun telefonudur?!

-Naçannik, Allax mana qanim olsun yalan deyiramsa, oğlum ölub...

-Ay bədbəxt. Arvadın ölüb, oğlun itkin düşüb... Amma bunu düz dedin, oğlun həqiqətən ölüb,–növbətçini çağırdı,- aparın bunu.

...Əsirlər saxlanılan otaqlarla yanaşı olan balaca otaqda üç meyit var idi. Meyitlər iylənməsin deyə otaq qızdırılmırdı, pəncərə gözlüklərini də açmışdılar. Qoca meyitlərdən birinin qarşısında çömbəltmə oturub dizlərini qucaqlayıb için-için ağlayırdı:

-Rudik can ooyy... Rudik can ooyy...

Bir az sonra boynundan önlük asılmış, həm də yaşam tərzi aşxana siçovulunun eyni olan yaşlı bir qadın da həmin otağa girdi. Yarısı tökülmüş saçlarının qalanını yola-yola toppuş, sallaq cəmdəyini meyitin üstünə yaydı:

- Rudik can vayy... Rudik can vayy...

O meyidin cibindən çıxan pasport Dadamyan Rudik Qareginoviçə məxsus idi.

**Müəllif: Xəlil Mirzə,**

***Şair-publisist, AYB-nin üzvü***

**Xəlil Mirzənin digər yazıları**

**ZAUR USTACIN DİGƏR YAZILARI**

**ŞAHNAZ SƏXAVƏTQIZININ YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**Eskişehir rüzgârı**

Sakin sakin oturduğum Adalarda
Sardı beni Eskişehir'in rüzgarı!
Şehri- Aşkı'm, masallar diyarı…
Dalgalanan bayrağın gölgesinde yalancı Güneş'e aldandım.
Huzurumsun dedim, Eskişehir'im,
Yeşiline kandım…
Porsuk Çayı coşuyor, kuşlar uçamıyor…
Esen deli rüzgar söyle bana gurbet nedir?
Uzak olmak nedir?
Hatıralarım, geçmişim, çocukluğum….
Neresidir gurbet ve ne zaman başlar?

Bir melodi fısıldıyorum hangi nota olduğunu bile bilmeden.
O bilmediğim nota beni nerelere götürüyor bilir misin esen deli rüzgar?
Fa'nın, Sol'un, Do'nun yerleri ayrıdır…
Her birisinin şanı ve her birinin deli gönlümde krallığı var.
Sekiz nota sekiz krallık taşıması hiç ağır olmuyor…
Gönlümde ne bir fırtına, ne de bir kavga olur, kalbimin rüzgarları tüm notaları yıkıp geçiyor!
Sen şimdi rüzgarım, iyi dinle sen hep akışta kal ve doğanın sana bahşettiği o görevlerini tamamla…
Git, tohumları uçur çiçekler açsın.
Es, denizlerin dalgaları vursun kıyılara sevenler dalgalara baksın.
Es ki, yurdumun pası kiri gitsin,
Es es es es ki şanlı bayrağımız dalgalansın
Es ki, Eskişehir'e bahar gelsin
Es ki, es ki, Paris'e kadar gidip selam versin!

*28/03/2025*

**Vapur**

Merhaba yine ,İstanbul,
Bak, yine ben geldim.
İlk gördüğün Yusuf artık İstanbul'da tek başına.
Bak, yine Kadıköy'deyim,
Şimdi ise Karaköy'e doğru gidiyorum…
Güle güle kaçırdığım vapur,
bir dahakini alırım
Ama neden naz yapıyorsun? Bürünmüşsün boz rengine
İndirmişsin şemsiye açar gibi bulutlarını aşağıya
Kara peçe yakışmıyor, aç cemalini göreyim…
Galata Kulesi neredesin?
Solumda Topkapı, sağımda Kız Kulesi
Açılmanı beklerim, İstanbul, istersen dök bütün göz yaşlarını,

Dertleşelim Seninle bir az
Yağsın yine yağmur, sil pasını…

*16/05/2025*

**Sonbahar duyguları**

Yürürken köprülerden, artık yazın bittiğini görüyorum,
Teker teker çiçekler solar, hoşçakal söylercesine…
Günler kısalır, Eylül biter, Ekim gelir!
Oy! Şimdi gurbet ellerde biçilmiş ekinler, kimsesiz kalan öksüz toprak…
Uykuya dalar güneş, ufuktan serin serin sabahlara uyanmak için.
O sabahlar ki, aldığın nefeste seni dünyaya yeniden gelmiş gibi hissettirecek…
Yorgun bulutlar yas tutar akşamın şiir dolu yalnızlığına
Yakında karlar yağacak, ruhumuzu ısıtmak için…
O Sonbahar ki müjdeleyen Kardanadamı…
Hiçbir Yaz gelmez Kışsız.
Ve Sonbahar gelip der ki, "Ey ağaçlarda ve yerde olan yapraklar özgürsünüz! Savrulun!

**Müəllif: Yusuf DEMİRAĞ**

**YUSUF DEMİRAĞIN YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**



# NƏRGİZÇİÇƏYİ

(*hekayə*)

Ətrafı yaşıl otlarla örtülən uzun, ensiz arx. Arxın kənarında bir-birinə yaxın iki söyüd ağacı əkilmişdir. Külək əsdikcə bu söyüdlərin budaqları əyilərək suya baş vurur və saç kimi bir-birinə dolaşardı. Həmin arxın kənarında taxta ilə hasara alınan ev. Ev saman və palçıq qarışığından hazırlanan çiy kərpicdən tikilmişdir. Evin divarında çatlar görünür. Üstü isə uzun taxtalarla örtülmüş, taxtaların üzərinə salafan çəkilmişdir. Bu evdə odunçu Heybət dayı ilə şəhərdə rəssamlıq məktəbini bitirən, buranın mənzərəsini çəkmək üçün kəndə gələn, qaraqş,

qaragöz, uzun kirpikli, orta boylu, dodağının üstündə xalı olan, əyninə çox vaxt sarı-yaşıl yarpaqlı don, ayağına isə qara, arxası kəsilmiş qaloş geyinən, qıvrım saçlarını çiyninə tökən **kirayənişin** Aygün adlı bir qız yaşayırdı. Bu qız həyətlərində su olmadığı üçün mütəmadi olaraq söyüdlü arxdan iki vedrə su götürüb, evin kənarındakı bir cərgə əkilmiş nərgiz çiçəklərinin dibinə tökərdi. Sonra keçib kənardakı kötüyün üstündə oturar, ağ vərəq üzərində rəngli boyalarla nərgizlərin şəklini çəkərdi. Çiçəklər açanda onları dərib, dəstə bağlayar, içərisində su olan qırmızı vedrəyə yığardı. Sonra həmin vedrəni əlinə götürərək qapı-qapı gəzib gülləri satardı. Çiçəkləri sataraq qazandığı pulla həm kirayə pulunu ödəyər, həm də özünə rəngli karandaşlar və kağız alıb müxtəlif şəkillər çəkərdi. O, qapı-qapı gəzəndə kimisi qapını onun üzünə açıb: "xoş gəlmisən qızım" – deyib, gülü alıb pul verərdi, kimisi də qız qapıdan boylanan kimi: "ört qapını, çıx get, bizə gül lazım deyil, özümüz həyətdəki gül-çiçəyi biçib mal-qaranın qabağına tökməkdən yorulmuşuq" – deyərdi. Bu qız həmin sözlərin təsiri altında küçələrinə gəlib çatmışdı. Küçənin tinini döndükdə bir nəfər ortaboylu, dolu bədənli, qara şalvar, ağ köynək, ayağına isə qara başmaq geyinən oğlan çömələrək əlindəki topu arxda yuyurdu. Qız onu gördükdə bir qədər aralıda vedrəsini yerə qoyub, söyüdlü arxın kənarında yaşıl çəmənlikdə oturdu. Ovcunu arxın suyu ilə doldurub üzünə çırpdı. Oğlan bir dəfə də olsun başını qaldırıb onun üzünə baxmadı. Qız sonra ayağa qalxıb içərisində bir neçə dəstə nərgizçiçəyi olan vedrəsini götürüb, arxın üstünə qoyulan, kiçik körpüyə oxşayan enli taxtanın üzərindən keçib evlərinə tərəf getmək istədikdə ayağı ilişdi və həmin taxtanın üstünə yıxıldı. İçərisində gül olan vedrəsi isə arxa düşdü. Qız bu anda oğlanın gözünün ucu ilə ona baxdığını sezdi. Ətəyi yuxarı qatlanmış donunu düzəldib, vedrəsini götürmədən özünü taxta qapılarından içəri atdı. Elə bil bu anda oğlan yuxudan ayıldı. Suyun içərisindəki nərgizçiçəyi dəstələrini yığıb, vedrənin içinə

qoydu. Sonra topunu və vedrəni götürüb, qızgilin qapısına yaxınlaşdı. Qapını bir neçə dəfə döydü, ancaq nə hay verən oldu, nə də qapını açan. Bir qədər keçdikdən sonra qız qapını açdı. Qız bir əliylə dizini tutmuşdu. Onu dizindən axan qan ayağının üsüylə aşağıya doğru süzülürdü. Oğlan bunu gördükdə özünü itirdi. Topu və çiçəkləri yerə qoyub cibindən ağ dəsmalını çıxarıb qıza uzatdı. Qız əlini uzadıb dəsmalı ondan almadı. Oğlan arxaya çevrilib yaxınlıqdakı arxda dəsmalını islatdı, əyilib qızın ayağından axan qanı sildi. Qız bu an onun boynundakı medalı gördü və vedrədəki boynunu əymiş nərgiz çiçəklərindən birini götürüb oğlana verdi. Sonra əlini möhkəm sıxdı. Oğlan qızgildən uzaqlaşdı.

Növbəti gün səhər açılan kimi qız yenə içərisində çiçəklər olan vedrəsini və çiçəklərin şəklini çəkdiyi tablonu götürüb gül satmaq üçün yeni məkana yollandı. O böyürtkən kolları ilə əhatələnmiş küçəylə irəliləyirdi. Hərdən qızarmış böyürtkənlərdən qırıb ağzına atır və üz-gözünü turşuda-turşuda saqqız kimi çeynəyirdi. Dəmir torla hasara alınan, yaşıl otlarla örtülən məktəb bağçasına yaxınlaşdıqda iki nəfər oğlan güləşirdi. Qız onların yanından keçərkən oğlanlardan birinin arxın kənarındakı oğlan olduğunu gördü. O, cəld geri qayıdıb, ot tayalarının arxası ilə irəlilədi ki, oğlan onu görməsin. Məktəb qapısının yanındakı oturacağı daşa yaxınlaşmışdı ki, dolu bədənli, ortaboylu, ağbəniz, əynində qara don, başına qara ağ nöqtəli şal bağlayan qadının əlini-qolunu ölçə-ölçə, ucadan danışa-danışa oğlanlara yaxınlaşdığını gördü. Həmin oğlan arvadı uzaqdan görən kimi özünü ot tayasının arxasına atdı. O biri oğlan isə yaşıl çəmənlikdə oturmuşdu. Arvad oğlana yaxınlaşdı:
-Ay bala, Elçini görməmisən?
-Yox, görməmişəm.
-Necə yəni görməmişəm. Səhərdən axşama qədər it-pişik kimi bu çəmənlikdə boğuşursunuz.
Elə bu anda Elçin ot tayalarının arxasından çıxaraq:

-Ana, nə olub, nə üçün qışqırırsan?
-Nə olacaq, axşama kimi tərin içində güləşirsən, gah ayağın zədələnir, gah da əlin. Nədi-nədi bir parça dəmir alacaqsan.
Qadın bu sözü demişdi ki, Elçin əliylə sinəsini yoxladı. Medalı boynunda yox idi. Ana, medalım düşüb, qoy gedim onu axtarım.
-Gəl düş qabağıma, gedək evə. Bəsdir bu dəmir-dümürlə oynadın.
Oğlan kor-peşman anasıyla birlikdə evlərinə tərəf getdi.
Hava qaranlıqlaşırdı. Qız bu gün bir dəstə də olsun nərgizçiçəyi sata bilməmişdi. Qız içərisində gül olan vedrə əlində ot tayasının yanından keçdikdə qarşısında yerdə nəyinsə parıldadığını gördü. Əyilib onu yerdən götürdü. Bu həmin oğlanın yaxasında gördüyü medal idi. Qız bundan sonra üç gün medalı sol tərəfdə ürəyinin üstündəki cibində saxladı. O, hər dəfə gül satmağa gedəndə gözləri Elçini axtarırdı ki, medalı ona versin, amma onu tapa bilmirdi.

Günlərin birində kəndə səs yayıldı ki, qonşu kəndlə bizim kəndin güləşçiləri, yəni Elçinlə Ceyhunun məktəbin həyətindəki yaşıl çəmənlikdə yarışı keçiriləcək. Qız bu xəbəri eşidəndə sevindi ki, medalı yarışdan sonra Elçinə verə biləcək. O gün yenə vedrəsi əlində məktəbə tərəf getdikdə həmin çəmənlikdə çoxlu insan toplaşdığını gördü və orya doğru getməyə başladı. Bu zaman çəmənlikdə qoyulan güləş döşəyi, yəni tatami üzərində Elçinlə Ceyhun güləşirdi. Elçin rəqibinə qarşı bir neçə fənd işlətdikdən sonra onun kürəyini yerə vurdu və qalib gəldi. Ətrafdakı insanlar onun üstünə atılıb qucaqladılar və onu gül yağışına tutdular. Qız isə yerində donub qalmışdı. Müəllimi əlində tutduğu medalı Elçinin boynuna asdı və alnından öpdü. Oğlanın sevinc və həyəcan təri alnından süzülürdü. Yavaş-yavaş ətrafdakı insanlar ondan bir qədər aralaşdı. Bu vaxt gülsatan qız ona yaxınlaşdı. Vedrədəki gülləri onun üstünə atdı, çəkdiyi rəsmi və ovcunda tutduğu medalı ona tərəf uzatdı. Oğlan əllərini uzadıb, medalı və rəsmi götürdü. Qız ona heç nə deməyib

getmək istədikdə oğlan onun qolundan tutub saxladı. Birdən onların baxışları toqquşdu. Göz-gözə gəldilər. Baxışları bir-birinə dikilib qaldı. Qız onun əlindən çıxıb, qaçaraq oradan uzaqlaşdı. Bir az keçdikdən sonra hamı dağılışdı. Məktəbin meydançasında heç kim qalmadı. Cığırla dostları ilə birlikdə addımlayan Elçin ovcunda möhkəm-möhkəm sıxdığı, ilk yarışda qazandığı həmin medal haqqında dostlarına danışırdı: -“Mən o vaxtlar beşinci sinifdə oxuyurdum. Kiçik yaşlarımdan güləşlə məşğuldum. Bir neçə dəfə yaşıdlarım arasında fərqlənmişdim. Bir gün müəllimim mənə bildirdi ki, Elçin, sən başda olmaqla dörd nəfər rayonlararası keçiriləcək yarışda iştirak etməlisiniz. Həmin gün gəlib valideynlərimə bildirdim. Deyirdilər ki, ay oğul, əl-ayağın yaralanıb, sağlamlığın itəcək. Bir parça dəmir və şan-şöhrətdən ötrü özünü oda atma. Mən isə onlara heç bir söz deməyib məktəbə getdim. Bütün olanları həm sinif yoldaşım, həm də ilk sevdiyim qız olan Gülşənə danışdım. Dedim ki, necə olur, olsun mən o yarışda iştirak etməliyəm. Qız tutqun səslə dedi, əlbəttə iştirak metməlisən. Sən qalib gəlməlisən, deyərək əliylə əlimi möhkəm sıxdı. Mən ondan ayrılıb, məktəbin qarışısındakı güləşçiləri yarışa aparmaq üçün gəlmiş avtobusa yaxınlaşanda artıq digər idmançılar valideynləri ilə görüşüb avtobusda əyləşirdilər. Avtobus tərpənmək üzrə idi. Mən isə tək-tənha bir ayağım avtobusun pilləkənində sanki kimisə gözləyirdim. Elə bu vaxt Gülşənin əlində çiçəklər qaçaraq avtobusa tərəf gəldiyini gördüm. Gülşən son anda çatıb, çiçəkləri mənə verdi və dedi, yarışdan medalla gəl, səni gözləyəcəyəm. Mən həmin yarışda qalib gəldim, medal qazandım. Medalı Gülşənə göstərmək üçün çox tələsirdim. Yarışlar isə hələ davam edirdi. Nəhayət yarışlar bitdi və həmin avtobus bizi gətirib məktəbimizin qarşısında düşürdü. Artıq mənim qalib olduğumu məktəb yoldaşlarım bilirdi. Onlar əllərində çiçək bizi qarşıladı. Mənim gözlərim onların içərisində Gülşəni axtarırdı. Amma onu tapa bilmədim. Fikirli halda oradan ayrılıb evimizə tərəf gedəndə yolda mənə

çox yaxın olan dostlarımdan biri ilə rastlaşdım. O bir neçə gün əvvəl Gülşənin bərk xəstələndiyini, hətta qan qusduğunu söylədi. Gülşən uzun illər əziyyət çəkdiyi və bizdən gizlətməyə çalışdığı vərəm xəstəliyindən vəfat etmişdi. Mən xatırladım ki, bir dəfə Gülşən bərk öskürmüşdü və ağzından qan gəlmişdi. Qanı görməyim deyə ağ dəsmalı ağzına tutmuşdu. Mən dostuma heç nə deyə bilmədim. Elçin, Gülşən bir də mənə demişdi ki, o, gələnə qədər mən ölsəm, deyərsən ki, qalib gəlib, qazandığı medalı və mənim ona verdiyim bir dəstə nərgizçiçəyini götürüb qəbrimin üstünə gəlsin. Qarşıdan gül satan qızın gəldiyini gördüm. O, bizə yaxınlaşdı və dayandı. Mən ona heç nə demədən vedrəsindən bir dəstə nərgizçiçəyi götürüb, dostumdan ayrılaraq birbaş qəbiristanlığa getdim. Qəbiristanlığı gəzdim, bütün baş daşlarının üstünü oxudum, ancaq onun adına rast gəlmədim. Qəbiristanlığın qapısından çıxmaq istədikdə yan tərəfdə hələ üstü örtülməmiş qəbri gördüm. Bu Gülşənin qəbri idi. Əlimdəki nərgiz güllərini onun qəbrinin üstünə düzdüm. Onun qəbrinin qarşısında diz çökdüm, gözümdən axan yaş, onun qəbrinin üstünü örtən boz torpağı islatdı. Sonra ayağa və evimizə getdim. Mən evə daxil olanda anamla tam böyük otaqdakı divanda oturmuşdular. Birdən atam məni gördükdə kinayə ilə soruşdu: – “yenə uduzdun?” Mən isə: – “Yox, bu dəfə birinci olmuşam və medal qazandım!” – dedim və əlimdə tutduğum medalı böyük otağın tən ortasındakı stolun üstünə atdım.” – Elə bu kəlməni demişdi ki, birdən anasının səsini eşitdi və onlara tərəf gəldiyini gördü. Anası ilk dəfəydi ki, gülə-gülə ona tərəf gəlirdi:

-Eşitdim, bu gün məktəbdə keçirilən yarışda qalib olmusan. Qolunu Elçinin boynuna salaraq qucaqlayıb, öpdü. Elçin bu anda dostlarından ayrılıb anası ilə birlikdə evlərinə tərəf getdi. Onlara evə daxil olanda anası Elçinin sağ qolunun şişdiyini gördükdə sifətindəki sevinci qəzəb əvəzlədi. Əl-qolunu ölçə-ölçə: – “Bəsdir də, bu dəmir-dümürdən əl çək. Bədənində bir sağlam

yer qalmayıb, gör neçə yaşın var, artıq sənin tayların ailə-uşaq sahibidirlər." – dedi. Elçin sakitcə divanda əyləşdi, başını aşağı əyib əlləri arasına aldı. Anası bir də acıqlı səslə: – "Bax oğlum, ata-anasını tanıyırıq, bilirik kimdir. Qonşumuz Fatmanın qızı Qönçəni sənə almaq istəyirəm. Adı da qönçədir, özü də. Hələ bir oğlan onun ətrini duymayıb. Tibb bacısıdır, bütün kəndin xəstələrinə yardım edir. Ev qızıdır, dörd divardan başqa bir yer görməyib." – dedi. Oğlan sakitcə başını əllərinin arasından qaldırıb, anasının qızarmış qəzəbli gözlərinə baxaraq:
-Ana, şadam ki, məni evləndirmək istəyirsən, onda məni dinlə. Mənim öz istədiyim var.
Anası əlini belinə qoyub, ona tərəf gəldi:
-Kimdi o?
-Odunçu Heybət dayının evində kirayənişin qalan gülsatan qız.
-Eh qız tapmadın da. Nə vaxt arxın kənarından keçirsən, görürsən ki, ağ kağız üzərində cızma-qara edir, gah da ki, gülləri ilə oynayır. Mənə elə gəlin lazım deyil. Nə bilim ata-anası kimdir, nəçidir... Özü də ki, bir tərəfi şəhərlə bağlıdır. Deyirlər, şəhər qızları o qədər də yaxşı olmur. Onu alsan, bu evdə ya sən oturacasan, ya da mən.

Oğlanın qolu bərk ağrıdığına görə qolu sarıqlı bir ay arxası üstə çarpayıda qaldı. Hərdən başını qaldırıb divarda başının üstündə asılmış qızın ona bağışladığı tabloya baxırdı. Yaxşılaşıb ayağa qalxan kimi birbaşa gülsatan qızgilin küçələrinə tərəf getdi. Qapını döydü, amma açan olmadı. O hasardan keçib həyətə daxil oldu. O tərəfə, bu tərəfə boylandı. Yenicə açılmış nərgiz güllərindən başqa heç nə görmədi. Evə yaxınlaşdı, bir qədər aralı olan taxta qapını açıb içəri daxil oldu. qapıdan girdikdə qapı ilə üzbəüz divarda ağ kağız üzərində çəkilmiş medalı gördü. Əlini yanına salıb gözlərini həmin rəsmə zillədi. Bu zaman arxadan kiminsə əlini onun çiyninə qoyduğunu hiss etdi. Arxaya döndükdə onun gülsatan qız yox, odunçu Heybət dayı olduğunu gördü. Onunla hal-əhval tutmadan gülsatan qızı

soruşdu. Kişi dərindən ah çəkdi: – “Eh oğlum, bir də onu görməyəcəyik. Şəhərə getdi. Bundan sonra orada gül satacaq. Ancaq gedəndə mənə tapşırıb ki, nə vaxt səni görsəm, bu şəkli sənə verim.” – dedi və divardakı medal rəsminə yaxınlaşdı. Cod, damarlı, çat-çat olmuş əlləriylə şəkli götürüb, Elçinə verdi. Oğlan özündən asılı olmayaraq rəsmi iki əli ilə sinəsinə sıxıb:
-Eyb etməz, Heybət dayı, mən gedib onu şəhərdə taparam. – dedi və geriyə baxmadan həyətə çıxdı. Qapının yanında vedrənin içərisində nərgiz çiçəyini gördü. Həmin nərgiz çiçəyindən bir dəstə götürüb həyət qapısına qədər gəldi və bir də dönüb həyətə, nərgiz güllərinə, evə diqqətlə baxdı. Bu zaman sanki külək həzin bir musiqi ifa edirdi. Külək həmin nərgizlərin saçaqlarına toxunduqca onlar bir-birinə daha da yaxınlaşırdı. Oğlan bir də onlara baxdı. Şəkli və gülü sinəsinə daha möhkəm sıxdı. Kəndin tozlu yollarıyla irəliləyib şəhərə gedən asfalt yola çıxdı. Anasının səsini eşitdi. Elə bu an şəhərə gedən avtobus gəlib onun qarşısında dayandı. Avtobusa minib kənddən uzaqlaşdı. Anası küçələri dörd dolandı. Elçini gördüm deyən olmadı. Kor-peşman evə qayıtdı.

**Müəllif: Günay ƏLİYEVA**

**GÜNAY ƏLİYEVANIN DİGƏR YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**MÜƏLLİM**

Ömür yollarının başlanğıcında,
Qayğı keş, zəhmli biri göründü.
Peyğəmbər misalı örnəkləriylə,
Düşüncə dəyişdi, fikir bölündü.
Qapını açarağ girdi içəri,
Sakitlik hökmünü sürdü otaqda.
Hamıya hörmətlə oturun dedi,
Özüdə əzimlə durdu ayağda.
Oturan kəslərdən birisi durdu,
Söylədi burdadır mühəndis, hakim
Amma ki, xalatı yuyulub deyə,
Gecikib, indicə gələcək həkim.
General söylədi olmasaydınız,
Həyatım olardı qəliz müəllim.
Bir ömür borcunu qaytarmağ olmaz,
Ey bizim dəyərli, əziz müəllim.
Tox oldun, hər zaman sadə göründün,
Gizlində yoxsulluq çəkdin müəllim.
Qopardıb ömrünün budaqlarından,
Yollara çiçəklər əkdin müəllim.
Vətən
Vətən mənim torpağıma qarışan,
Şəhidimin alnqanıyla yarandı.
Müstəqillik bayrağının al rəngi
Şəhidlərin qanlarıyla boyandı.
Qazilərin yarasından düşən qan
Azadlığa can qataraq verdi can.
Qarşısında başın əydi asiman,
Dağ-dərələr çiçək açdı, oyandı.
Vətən sözü şəhidlərin al qanıyla yarandı.
Qardaş dərdi bacılara dağ oldu,
Anaların qara saçı ağ oldu.
İgid oğul dərə oldu, dağ oldu,
Düşmənlərə çəpər oldu, dayandı.
Vətən sözü şəhidlərin al qanıyla yarandı.

**ƏSGƏR YOLU**

Gecə keçib, külək əsir,
Pıçıldayır ağacların yarpaqları.
Bir ana da həzin-həzin layla çalıb,
Yatızdırır evdə körpə uşaqları.
Uşaqlar da yatmır nəsə,
Gənc anaya sual verir,
Söyləyirlər: “ana, evə
əsgər atam nə vaxt gəlir?”
Qızı deyir anasına:
“Kaş ki atam ola burda,
İndi soyuq külək əsir,
Üşüyürmü atam, orda?”
Ana deyir: “nazlı qızım,
Sevgimizə sevgi qatan
Sənin sevgin atanladı,
Üşüyərmi sənin atan?”
Oğul baxır anasına,
Deyir: “ana, bu nə səsdi?”
Ana deyir: “qorxma, oğul,
Şimşək çaxdı, külək əsdi”.
Ana susur, deyə bilmir
müharibə gedir indi.
O gələn də top səsiydi,
Şimşək kimi səsi gəldi.
Bu an elə gənc ananın
gözlərindən yaşlar axır,
Ona həyat yoldaşının
Divardakı şəkli “baxır”.
Ana silir göz yaşını,
Allahına açır əlin.
Deyir: “Tanrı hifz eləsin,
Sağ-salamat geri gəlin”.

## BIR “HƏ” DENƏN, OL, ANAMIN GƏLINI

Qış ömrümə yaz ətirli gülümsən,
Günəşim sən, Ayım sənsən, suyum sən.
Gəl, başımı dizin üstə qoyum, sən
oxşa mənim saçlarımın telini.
Nə vaxt ki, mən görürəm ki, gülürsən,
Gözlərimdə dünya dərdin silirsən.
Sənsizlikdən boğuluram, bilirsən,
Uzat mənə, sevgi dolu əlini.
Gəl, dəyişib gərdişimi, çevir sən,
Xoşbəxtliyin çərxini kaş, çevirsən,
Bilirəm ki, sən də məni sevirsən,
Bir “hə” denən, ol, anamın gəlini.
Keçsə də otuz il, mənim olarsan
Sənsizlik bağlayıb yara bağrımda,
Gəl yenə saçını dara bağrımda.
Qarabağ olmusan qara bağrımda,
Keçsə də otuz il, mənim olarsan.
Həsrəti özümə qoşub gələrəm,
Sulara qovuşub, daşıb gələrəm.
Dağları birbəbir aşıb gələrəm,
Bir gecə sən qəfil mənim olarsan.
Etmərəm əhdinə nəzir-niyazi,
Eşqimdən xəbərdar, Allah da razı.
Ya şəhid olaram, ya da ki qazi,
Səndə bir qərənfil, mənim olarsan.

## BAĞIŞLA

Çox dəyişib mənim daha düşüncəm,
Mən həmənki mən deyiləm, bağışla.
Gah görünüb, gah yox ola bilmərəm,
Dağ üstündə çən deyiləm, bağışla.
Nəyim vardı, çox bilərək azaldıb,
Dərdlə məni qəm taxtına ucaldıb,
Qoca dünya daxilimi qocaldıb,
Amma saçı dən deyiləm, bağışla.

Bu dünyanı bir başqa cür bilərdim,
Hesablardım, dərdin, qəmin bölərdim.
Mən əvvəllər qəh-qəhəylə gülərdim,
İndi üzü şən deyiləm, bağışla.
Tikanlıqda qızıl güllər əkmişəm,
Sən verdiyin təsəllini görmüşəm.
Gəl, söyləmə, nələr-nələr çəkmişəm,
Mən ki mənəm, sən deyiləm, bağışla.

***Müəllif:*** **Xəzər bəy Hikmətoğlu**
*Şair-publisist*

**Xəzər bəy Hikmətoğlunun yazıları**

**MURAD MƏMMƏDOVUN YAZILARI**

**GÜNNUR AĞAYEVANIN YAZILARI**

**HƏCƏR ATAKİŞİYEVANIN YAZILARI**

**“ARİSTOTEL POETİKASI” RUBRİKASI**

**I>>>>>>BU HEKAYƏNİ MÜTLƏQ OXU<<<<<<I**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**Dipdiri**

Qara qəpik dünyanın sakinləri qovaqdır,
Biri köç karvanında, biri doğulacaqdır,
Nənəmin cəhrə qurub, nəhrə asdığı vaxtdır,
Duaların üfqündə isinmiş alın təri - dipdiri.

Bir tərəfdə çardağı, bir tərəfdə balları,
Qumaşdandır boğçası, cehizliyi, şalları,
Ay şövqündə toplamış yuxulu, - buğdaları,
Qartımış sümükləri, qabarlamış əlləri - dipdiri.

Yəhərli yüyənli at daylağına teylənir,
Yaz açılır arandan dağa köçən əylənir,
Kimsə qonşu çadırda nərgiz yuyub dəmləyir,
Toplayırıq şəfalı bitkiləri, gülləri - dipdiri.

Kainat da sükutda, yer kürəsi tələsmir,
Nə nənəmin əlləri, nə də ki, yarpaq əsmir,
Əzrail də bağ qurur, qurur, bir teli kəsmir,
Elə bil ki, alacaq ağuşuna göy yeri - dipdiri.

Bu elə yuxudur ki, ayılmaq istəmirsən!
Hər şey səndən aşağı, üst yerdəsən, əmrsən.
Birdən də zaman dönür əcəl donu geyirsən,
Özündən, özgəsindən yerini alır biri-dipdiri.

## O dam yox

Buludların tozcuğu dağa çöküb dağıldı,
Bir buluddan buluda qara keçib qayıtdım.
Səhərin dan çağında açılmadı səhərim,
Gedənlərin dalınca sıra seçib qayıtdım.

Qayıtdım günəş qürub, ay daldanıb, yox səsim,
Cığırlar hörük-hörük, təpələr damğa-damğa.
Buralarda külək yox, susqun düşüb meşələr,
Amma ömür qıvrılır, sovrulur dalğa-dalğa.

Elə bil ki, qayada şimşəkdən gizlənmişəm,
Ulduz-ulduz meh əsib gözlərimə didəmdən.
Səssizlikdən ulayır yuva yeri, yurd yeri,
Xana-xana boş qalıb anam atam gedəndən.

Qayıtdım ki, obam yox, isti-isti o dam yox.
Qayıtdım ki, yox kəsim, qayıtdım ki, adam yox.

**Ruhumun qalxanı**

Bir çəkimlik nəfəsəm, bir udumluq su düşün,
Büsbütün ruhundakı qida kimi, səs kimi.
Sən məni unutmusan, unut, unuda bilsən,
Səni çəkdim içimə ən qəşəng nəfəs kimi.

Gözümdə bir güzgülən, gözümdə bir köç də, qal!
Bu dünyanın yox üzü, hə üzü üzümdədir.
Sənin mən olan adın kainatın köçündə,
Yaşanmış və yaşlanmış ən ali, ən ümdədir.

Elə sanma getmərəm, gedər, geri gəlmərəm,
Buludların əlində göy üzü çiliklənər.
Sən müqəddəs sandığın bağımız qopsa birdən,
Ən ali həqiqətlər, yuxular da çirklənər.

Sənin döydüyün qapı ürəyimin çarpışı,
Sənin gəzdiyin ürək gözlərimin qibləsi.
Sən məni yox saymağa davam etmə eləcə,
Ay ruhumun qalxanı, cismimin dəbilqəsi.

## İlahi

Mənim bir dənəyimlik ömrüm yoxdur, İlahi,
Ondansa bağrım üstə daş göndər, taxta göndər.
Sən verdiyin şeyləri almadım ki, vaxta var,
Bir işığın vardırsa, qısacıq vaxta göndər.

Boş qalan beşiyimin layla səsi çatışmır,
İçimdəki ocağın, su töksəm də yatışmır,
Başımı nəylə qatsam, qarışmır ki, qatışmır,
Beynimi dondurmağa azacıq şaxta göndər.

Sil ömrümdən nə olar anam atam nə yazdı,
Mən dərinəm, olanlar ömrüm üçün dayazdı,
Əgər deyirsən ki, Sən, olub bitənlər azdı,
Səsi, nəfəsi də al, nə versən yoxda göndər.

**Viran şəhərlərin uşaqlarıyıq**

Qopub dam örtüyü yiyəsi hanı,
Yiyəsiz qalmışıq qəbilələrdə.
Mən din havasında qalxmışam göyə,
Sən də ziyarətdə, mədinələrdə.

Nə vaxt özümüzə gələcəyik biz,
O uçuq daxmamız yuvalaşacaq?
Bizi ayrı salan məzhəb davası
Bizimlə ömürlük vidalaşacaq?

İndi biz deyilik mənlə sən ayrı,
Hərəmiz bir yolun qurşaqlarıyıq.
Anamız atamız dağılan ölkə,
Viran şəhərlərin uşaqlarıyıq.

**Külək**

Kəs uğultu qoparan, sarı, narıncı külək
Evimə çırpılma dur, susqun, zarıncı külək.
Hardasa qoparmısan istilik naqilini
Qaçıb rəngi əlimin, qara, turuncu külək.

Yuxumu qaçırdığın "u" səsinə oyandım
Elə bildim yağırsan su səsinə oyandım
Piltənin istisi yox qapının küncündəki
Səsinin səsindəki "du" səsinə oyandım.

Soyuq sənin əsərin burnumun ucundakı
Qarıltı, qurultusan qarnımın acındakı
Həniri yox örtümün, nəfəsimin, əlimin
Üfürtünü çək barı alnımın sacındakı

**Ruhun canı**

Mən elə yorğunam ki,
ruhumun damarında
bir dolaşım qan yoxdur.
Bir qucaqlıq hənirti,
yaşamağa can yoxdur.
- Ruhun canımı olur?
- Olur ey əziz adam,
yoxsa yaranardımı
atan anan torpaqdan?
Bir nütfəlik həyatın
eşiyində dövrələr,
göz hiss eləmirsə bəs,
necə yatar, kövrələr?
- Gözün görməkdir işi,
əcaib, qəraibdir,
bu dünyanın seyrişi.
- Ruhun canında dad var,
dadın canında dad var,
görməkdə, bilməkdədir,

yaşamaqdadır dadlar.
- Yox, sən ağlını uddun,
sən bir torpaq, hava, su,
özündən yanan oddun.
Bir cüt ulduz parlayır
üzündəki dəlikdə,
sən işığa dönürsən
işıqlar gəlmədikdə.
Ruh öz yuvasındadır,
yuva vücuduna tən.
Ruh doğulur,
yaranır cansız qopan kölgədən.

**Ukrayna**

Elburus küçələrin
yastıq qəlpələri
yetim qarnını aclığa aparır.
Zirzəmilərin almaq-culmaq dalğası
düyün hədiyyəsi edir doğmağı.
Yaşamın barıt nəfəsliyində
cütlük imza atır.
Güvən
qanına qəltan edir
binaları.
Diktator gecələrin
hörük saçları

soyumuş səsini oxşayır adamların.
Çərşənbə gecəsinin
keçməyən qanmışıdır Ukrayna.
Bir imza qədər
qurtuluşdur savaşlar,
bir imza qədər
ölümdür doğuluşlar.

**Kiçiltdin**

Səhərimin dan yeri kimi
sevmişdim səni,
asta-asta arınırdı.

Bir səhər oyandım ki, vətənsən,
Bir səhər oyandım ki, dostsan,
Bir səhər oyandım ki, yoxsan.

Yoxluq varlığın qoynuna qısılan
əcəl kimi gəlir.
Darıxmışam
ümid arxasınca boylanıb
səssiz axan zamanın sən boyda olmasına.

Daha gözlərim öpməz mesajlarını,
ürəyim də çapmaz

əvvəlki quş ürəyi kimi.
Sən məni sükut əyninə biçib,
kiçiltdin.

## Qurqur

Qurqur yumurta qoyub
çardağımın altına,
səs edir səhərləri.
Ordan püş töküləndə,
heç olmur ətərləri.
Əvvəl iki idilər,
sonra dörd, altı oldu.
Bir günsə baxıb gördüm,
çardağın altı doldu.
Arada nəğmə deyir,
arada gəlir – gedir,
tük tökülür başıma.
Dimdiyindən daş atır,
elə bil evcik qurur,
birdən də sakit durur...

Unuduram çox zaman
ağzını bağlamağa
duz tökdüyüm "banka" ın.
Çadırı düzəltməyə çıxanda
gördüklərim;

barmaq basmağa yer yox,
üstü dolub atmanın –
püş çoxalıb quruyub.

Ata qurqur ananı
yumurtasının üstə
yem gətirib doyurub.
Hava isti, dəmir od,
çətin çıxar balası.
Xoşbəxtdir mənim qədər
unudub örtmədiyim üstünü –
duz "banka" sı.

**Şak-şak**

Üşüyür parıltılı baxışların laməkanlığı,
lallığın sovruğunda.
İnsanın gözündən başlayır tanışlıq,
dərdindən qovulur,
səsindən bilinir kimsəsizlik...
Qulağında cırcırama ötüşür,
yuxusuzlayır gecələri.
Sabahın danı, mürgülü
bir çimirlik yol əsnəkliyi.
Gecən xeyirə dayanıqlıq,
sabit doğulur Qaffur zikirlər.
"Müqqətəə" fəslində

bağı qopur doğmalığın.
Lut qövmü kimi sonunu gətirir adamlar,
əsir ayrılıqlar.
Gecənin günortasında şəffaflanır
çəpəkilik
Səhərin dilində sərinləyir sözlüklər,
cəm gedir qaranlıqlar.
Mən bir səhərə,
bir qaranlığa boylanıram
don vurmuşumdan.
Qəlbimin ritm melodiyası şak-şak...

**Müəllif: GÜLNARƏ İSRAFİL**

**GÜLNARƏ İSRAFİLİN YAZILARI**

**ZAUR USTACIN DİGƏR YAZILARI**

**ŞAHNAZ SƏXAVƏTQIZININ YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**Eskişehirə qar yağır**

Eskişehirə qar yağır

Elə bil, havada uçuşan

Ağ kəpənəklər balıqları

Salamlamaq üçün tələsirlər...

Elə bil, bu şəhərin itləri, pişikləri də

Buludların qucağında

Yayxanıb sevinirlər...

Sanki bir sürü qu quşu

Porsuq çayını dövrəyə alıb

"Bənövşə- bənövşə" oynayır

"Bənövşə bəndə düşə,

Bizdən sizə kim düşə?"

Bəlkə bir cüt maralın sehirli arabasında

"Az gedib, uz gedib, dərə-təpə düz gedib"

Yolunu azıb "sizdən bizə"

Masal Şatosuna düşəsən?

Qaradam pıçıldayır: "

Gəl, qartopu oynayaq."

Birdən yadıma düşür ki,

Axı, əlcəklərim Bakıda,

Əllərim Səndə qalıb.

Küləklər şəhəri xatirələrimdən,

Sən Laplandiyadan da uzaqdasan...

Bəs mən necə qartopu oynayım?

**Baharım**

Mən qar altında qalan,

Sırsırası salxımlanan

tənha torpaq kimiydim

Gündüzləri qış günəşi

Gözlərimi dalayardı,

Gecələri zülmət olar

Varlığımı talayardı

Üşüyərdim...

Hardan gəldin?

Qarlı qışa sinə gərdin, nərgizim,

Ləçək - ləçək nur əlçdin köksümə...

Budağından ayrı düşən yarpaq idim

Buludlara qonaq edən

Yel oldun...

Ürəyim elə dolmuşdu ki,

Gözyaşıma yoldaş olan sel oldun...

Ruhumu sazaq vurmuşdu

Sən könlümü isidən

Alov oldun, od oldun…

Nə yaxşı ki, boz ömrümə

Cəmrə oldun, baharım

Naxışıma ilmə oldun, nübarım...

**Sevirəm**

Mən Səni sevirəm lal sular kimi

Səssiz -səmirsiz

Mən səni sevirəm

Sönmüş ocaq tək

İstisiz, hənirsiz...

Mən səni sevirəm boş qucaq kimi,

Ağaca sancılmış bir oraq kimi,

Divardan asılmış yiyəsiz yaraq kimi...

Mən səni sevirəm cızma-qara yazılmış,

Əzilib, yumarlanmış yerdəki varaq kimi...

Varlığın yoxluğumu nə duyur, nə eşidir

Bu sahibsiz sevgim

Qar kimi, buz kimi içimi üşüdür...

**Sol tərəfini boş saxla**

Özümü biləndən

Həmişə məsləhət eşitmişəm

Atamdan, anamdan

Bibimdən, xalamdan...

Məsələn, anam deyərdi ki,

Yaxşı oxusan varlı olacaqsan.

Xalam tənbeh edərdi:

"Qız uşağısan

indidən qaşlarını alsan

evdə qalacaqsan"

Taleyimin bircə tükdən

Asılı olduğunu sanardı.

Amma Nənəm bəxtimin

Əvvəldən yazıldığına inanardı...

Bibimə görə qadın şərab içməzdi,

Sevdiyi oğlanla görüşməzdi.

Müəlliməm arada köhnə adətləri yada salardı,

Qız uşağı yeriyəndə yerə baxardı

Qonşulara görə qızlar

qulağını deşdirib qızıl sırğa taxardı.

Amma ən gözəl məsləhətin

Otuzumdan sonra fərqinə vardım:

Yağışlı qış axşamında

Metronun eskalatorunda

Fikrə dalarkən

Qaydaları anons edən

Xanımın səsi gəlir

"Sol tərəfi keçid üçün boş saxlayın"

Amma mən həmişə

Sol tərəfimə əziyyət etmişəm...

Eh! heyif ki, bu anonsu

Belə gec eşitmişəm...

Hə, dostum indi sənə

bir məsləhət verim:

"Sol tərəfini keçid üçün boş saxla,

Gəlib keçənlərə mane olma"

Əmin ol,

Gələnlər bir gün

Mütləq gedəcəklər.

Sən sol tərəfindən muğayat ol, dostum

"Sol tərəfini hər zaman boş saxla"...

**Qəfil qonaq**

Ey ömrümə qonaq olanım

Qapımı nə gec döydün?!

Çayım buza dönüb, çörəyim bayatlayıb,

Fələk naşı bağban kimi

Ömrümü baltalayıb.

Nə ağzımın dadı qalıb,

Nə də əlimin duzu.

Bu vaxt qonaq gəlmək olar?

Bəxtim fil qulağında yatıb,

Əcəl ac qurt kimi ulayır,

Saçımdakı ağ tellər

Canıma kəfən biçir.

Nə qəlbimin taqəti var,

Nə də gözümün nuru.

Daha gələni də gözüm pis seçir

Sen, ey ömrümün qəfil qonağı,

Qapımı ne gec döydün?!.

Bu vaxt qonaq gelmek olar?

**Məkan bilməz könül**

Sonra yeddi rəngli günəş çıxdı

Təpə-təpə buludların arasından...

Sonra ləçək- ləçək lalə kimi

Yuvarlandı göz yaşlarım

Ürəyimin yarasından...

Arzularım yaşıl rəngdi

Sarı- sarı saman oldu,

Ümidlərim alovlandı, közü qaldı,

Duman oldu...

Öz ömrümün rənglərində

Görən kimin gözü qaldı?

Xəyallarım nalə çəkdi kaman kimi...

Günəşimin gürub çağı

Eşqim yalan, güman kimi...

Sonra torpaq sevəcək məni

Heç kəsin sevmədiyi kimi

Ruhuma dalğalar sığal çəkəcək

Heç kəsin öpmədiyi kimi...

**Məndən salam deyersən yanındakı qadına**

Gecən xeyirə qalsın,

Yol adam, yorğun adam…

Qəlbinə girməsəm də

Mən sənə vurğun adam

Məndən “salam” deyərsən

Yanındakı qadına…

De ki, yuxuya getsən

Pəncərəni bağlasın,

Külqabındakı közün

Söndüyünü yoxlasın.

Sən çox içdiyin axşam

Sinəni sığallasın,

Çox danışıb ağlasan

Gözlərinə baxmasın

Köksünə sıxıb səni

Saçını tumarlasın

Boynundakı xalından

Qoy öpsün axşam- səhər

Xalın nə günahı var

Yoxluğumu duymasın

Yola verin birtəhər…

Gecən xeyirə qalsın,

Yol adam, yorğun adam

Ömrün payızı tutgun

Qışı qar, çovğun, adam…

Elə yaşa ki, daha

Ürəyin üşüməsin,

Əllərin boş qalmasın,

Kürəyin üşüməsin…

**Lizon xala kimi**

Bilmirəm fikir veribsənmi

Beşiklərin yastığında

Gecə-gündüz yatan

Körpələrin başının izi qalar

Bax eləcə izin qalıb köksümdə…

İndi yanımda olsan

Başını sinəmdəki

O məchul boşluğa sıxıb

Elə möhkəm

Qucaqlayardım ki, səni

Sonra da çərpələng

Qollarına bürünərdim

Axşamın mehindən,

Səhərin şehindən

Beləcə gizlənərdim

Qollarının arasında…

Nə qədər başımı qatsam da

Hər kəslə danışıb

Səsimi başıma atsam da

Gecələr elə pis göynəyirsən ki,

Ürəyimin yarasında

Mopassanın

"Bir yaz axşamında"kı

Lizon xala kimi

Elə kimsəsizəm ki…

Bəzən divarın o tərəfindəki

Həzin bir səs, xəfif bir gülüş

Qanadar yaralarımı…

Nə qədər uzağa qaçsam da

Yenə elə həminkiyəm…

Ruhuma hopmuş

Qanıma qarışmış, zalım,

Üz çevirib getsən də

Yenə elə səninkiyəm…

**ÇOBANYASTIĞI**

Axşama qonaqlıq var idi

Beş badə düzmüşdüm

Masanın üstünə

Bir mum yandırmışdım

Bir dəstə də çobanyastığı

Almışdım güldana…

Yenə gəldi qonaqlarım

Qaş qaralanda,

Göz gözü görməyəndə

Xoruzlar banlayana kimi

oturduq…

Birinci badəni sənsizlik qaldırdı

Sənin şərəfinə içdik

İkinci badəni xəyallara süzdük

Sevdiyin mahnını da qonaq çağırmışdım

Səhərə qədər sağlıq dedi dayanmadan

Şam kimi əriyən ömrümün

Badəsini göz yaşlarımla doldurmuşdum

Çobanyastığı "sevir" deyənə qədər

Otağıma həbs edib ləçəklərini

soldurmuşdum…

Son badəni qaldıran olmadı

O axşam masada bir yer boş

Bir badə yiyəsiz qaldı

Sən adlı qonağım gəlmədi

Bu axşamkı qonaqlıqda da üzüm gülmədi…

**Qızıma məktub**

Bağışla məni, mələyim,

Ömrümün şaxtasına, sazağına

Qonaq elədim səni…

Bağışla məni, canım qızım,

Sənə yedirtdiyim yavan çörəyin

Hər tikəsinə görə bağışla məni

Gözlərindən süzülüb

Yanaqlarına tələsən

Hər damla göz yaşına görə

Bağışla məni…

Sənə aldığım oyuncaqlar da

Kədərli görünür,

Üzünü güldürə bilmədim

Bağışla məni…

Bağışla ki, sənə beşik başında

“Lay- lay dedim yatasan,

Qızılgülə batasan,

Qızılgülün içində

Şirin yuxu tapasan” demişdim,

Onda hardan biləydin ki,

Bu dünyada qəlbimizə

Güllərin tikanları batır,

Onda hardan biləydin ki,

Adam isti evdə, rahat yataqda

Şirin yuxu tapır.

Bağışla məni, mələyim,

Körpə canın üşüyəndə

İsti qucaq oldum

Nəfəsimlə isitdim nəfəsini.

Canın od kəsiləndə

Alnına sərin əl,

Ürəyinə şirin dil oldum.

Bağışla məni, canım qızım

Ev ola bilmədim,

Ailə ola bilmədim.

Bəlkə də mən günah oldum

Nalə oldum, ah oldum,

Bəlkə də mən al şəfəqli

Sabah oldum…

Bəlkə yenə ömrümüzə bahar gələr

Ümidimiz çiçək açar,

Sevinc bizi tapar gələr, kəpənəyim.

Kaşki həyat şirin olsun noğul kimi

Tanrı sənə ömür versin nağıl kimi

Eh…Nə çox oldu

Bu bəlkələr, bu keşkələr

Nə çox oldu

Boz buludlar, kölgələr

Bəlkələrə, keşkələrə görə

Bağışla məni, kəpənəyim

Sənə yaşadıqlarıma görə

Bağışla məni, körpə mələyim…

**Qəzetçi**

Xatirələr dumanlı, gözlərimiz yuxulu,

Həyat köşkə bənzəyir, ömür qəzet qoxulu

Suallarla, nidalar sətirə naxış olsun

Gəl, görüşək, əzizim, öpüşün yağış olsun

Bax, qapını döyürəm, qulaqardına vurma

Daşı tök ətəyindən, belə deyingən olma

Gəl, yaşayaq bu ömrü,

Bir gün qəzetçi kimi, bir gün simitçi kimi

Gəl, yaşayaq bu ömrü, qalma seyirci kimi

Nəyi pisdi dünyanın, yağışı var, qarı var

Sən yanımda olanda dünya da cənnət olar

Gəl, yaşayaq bu ömrü,

Zamanı çox daralmış iki kəpənək kimi

Yenə aç qollarını əlvan çərpələng kimi

Yenə yazda görüşək, yayda günaha bataq

Sən qəm yemə, əzizim

Nə də olsa payızın o leysan yağışları

Günahları yuyacaq…

Nə dalıbsan dəryaya tənha balıqlar kimi?

Çıxaq göyün üzünə qoşa buludlar kimi

Gəl, barışaq, əzizim, məni sənsiz qoyma, gəl,

Bilirsən, darıxıram, göz yaşıma qıyma, gəl

Sən ki, özün deyirdin, hər şey yaxşı olacaq

Aylar, illər keçəcək,

Köhnə qəzetlər kimi

Ömrümüzə yazılan xatirələr qalacaq…

**MÜƏLLİF: Turan NOVRUZLU**

**GÜLNARƏ İSRAFİLİN YAZILARI**

**TURAN NOVRUZLUNUN YAZILARI**



# MƏN BURADAYAM

(*esse*)

*"Kür qırağının əcəb seyrəngahı var..."*

***M.P.Vaqif***

Bağ yolunun sükutu içində dayanmış bir qadın... ətrafında rənglərin bayramı var: çəhrayı, ağ, bənövşəyi güllər sanki bir-biri ilə pıçıldaşır. Amma bu bolluğun içində ən səssiz, ən dərin çiçək onun dodağındakı təbəssümdür.

"Dodağımızdakı təbəssüm, üzümüzdəki ifadə bəzən içimizdəki söhbətlərin səssiz şəkli olur..."

Bu cümlə fotonun ruhunu açan açardır. Çünki bu təbəssüm nə sadəcə sevincdir, nə də ötəri bir anın donmuş halı. O, illərin, yaşanmışlıqların, udulmuş sözlərin, vaxtında deyilməmiş etirafların sükutla danışan dilidir.

Ağ libasda dayanmaq — bu, təsadüf deyil. Ağlıq burada saflığın yox, barışın rəngidir. İnsan öz daxilində fırtınaları sakitləşdirəndən sonra ağ geyinir. Hər şey keçmişdə qalanda, artıq mübarizə yox, qəbul başlayanda... Üz cizgilərindəki sakitlik "mən bu yolu tanıyıram" deyir. Arxadakı yaşıl tağ isə elə bil bir keçiddir: ötən günlərdən bu ana açılan bir qapı.

Bu fotoda baxışlar birbaşa obyektivə meydan oxumur. Onlar sakitcə dayanır, amma qaçmır da. Bu, özünlə üz-üzə gəlməkdən qorxmayan baxışlardır. Bəlkə də içində uzun-uzadı söhbətlər gedir: "Düz etdimmi?", "Dəyərdimi?", "Yenidən başlasaq, fərqli olardımı?" Amma cavablar səsə çevrilmir. Çünki artıq səsə ehtiyac yoxdur. Cavablar üz ifadəsinə hopub.

Güllər çoxdur, amma o, güllərə qarışmır. Yolun ortasında dayanıb. Yol — insanın taleyidir. Kənara çəkilməyib, amma tələsmir də. Bu dayanış bir anlıq pauzadır: həyatın cümləsində qoyulmuş nöqtə deyil, vergüldür.

Bu esse bir qadın haqqında deyil yalnız. Bu, insanın özü ilə apardığı səssiz dialoq haqqındadır. Hər kəsin dodağında bir təbəssüm var, amma hər təbəssüm gülüş demək deyil. Bəzən

təbəssüm — “mən danışdım, amma səni sözlə yormadım” deməyin ən zərif formasıdır.

Və bəzən bir foto min söz demir…

Sadəcə bizi dinləməyə məcbur edir. Biz buna ya “kürrük”, ya da “sükutun səsi” deyirik… əslində isə bu sadəcə içdən gələn “MƏN HƏLƏ VARAM”, “MƏN HƏLƏ BURADAYAM” hayqırtısıdır.

*29.01.2026. Bakı .*

**Müəllif: Zaur USTAC**

***AYB və AJB-nin üzvü, “Yazarlar” jurnalının baş redaktoru, şair-publisist, tərcüməçi-nasir***

**ZAUR USTACIN YAZILARI**

**Oxuyun** >> **Gözündə tük var**

**Zaur Ustacın şeirləri haqqında**

**YAZARLAR.AZ**

**ZAUR USTACIN DİGƏR YAZILARI**

**ŞAHNAZ SƏXAVƏTQIZININ YAZILARI**

**I>>>>>>BU HEKAYƏNİ MÜTLƏQ OXU<<<<<<I**

**Mustafa Müseyiboğlu adına kitabxana**




**14 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 28 may metro stansiyası yaxınlığında yerləşən “Kitabevim.az” Kitab Evində “Yazarlar” jurnalının hər il təşkil etdiyi ənənəvi “14 fevral Beynəlxalq Kitab Bağışlama Günü” tədbirləri baş tutub. Bu barədə “Yazarlar” jurnalının 60-cı xüsusi buraxılışında ətraflı məlumat verilib. Bu sayımızda tədbirdən bir neçə foto paylaşmaqla kifayətlənirik. 2027-ci ildə sən də bizə qoşul! Gəl, kitabını apar. Dəstəyə görə “JET PRİNT” və “Kitabevim.az” Kitab Evinin kollektivinə təşəkkürlər!**


MÜƏLLİF MASASI
JET PRINT
JET PRINT
JET PRINT


MÜƏLLİF MASASI
JET PRINT
JET PRINT




I>>>>>>> **Zaur Ustac "İzsürənlər" kitabını təqdim edərkən**


MÜƏLLİF MASASI
TƏŞƏKKÜRNAMƏ






**I>>>>>>** **14 fevral 2026 – Beynəlxalq Kitab Bağışlama Günü**



***5 mart tanınmış şair** [Xəzər bəy Hikmətoğlu]nun anadan olduğu gündür.*

*"Yazarlar" jurnalının* **kollektivi** *adından* [Xəzər bəy Hikmətoğlu]nu *doğum günü münasibətilə təbrik edir, qarşıdakı bütün həyat və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq.*

**Hörmətlə: Zaur USTAC,**
***"Yazarlar" jurnalının baş redaktoru.***

# QEYDLƏR



KİTABEVİM.AZ
kitab marketi
www.KİTABEVİM.AZ




## MURAD MƏMMƏDOVUN YAZILARI

## GÜNNUR AĞAYEVANIN YAZILARI

## HƏCƏR ATAKİŞİYEVANIN YAZILARI

## “ARİSTOTEL POETİKASI” RUBRİKASI

## I>>>>>>BU HEKAYƏNİ MÜTLƏQ OXU<<<<<<I

## Mustafa Müseyiboğlu adına kitabxana

## "TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!"

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a

Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.

Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.

Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**

Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

"Yazarlar"ın redaksiyasında yığılıb səhifələnir,

**"JET PRİNT ÇAP MƏRKƏZİ"**NDƏ çap olunub.

***("Jet Print"də operativ xidmət: +994557232221***).

Çapa imzalanıb: 01.03.2026

Sifariş: №:09

Format: A 5

Tiraj: Məhdud sayda (kitabxanalar üçün).

Elektron variant var.

Qiyməti: **PULSUZ.**


Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.